## “Dostumuzun ailəsində artım var"

### Birinci vitse-prezident Mehriban Əliyeva Şuşadan paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşadan paylaşım edib.**

Birinci vitse-prezident paylaşımında yazıb: "Dostumuzun ailəsində artım var".

## Ermənistan təyyarəsinin Dubaya enməsinə icazə verilməyib



**Dubayın aviasiya rəhbərliyi Ermənistanın ”Fly One Armenia” şirkətinin təyyarəsinə yerli hava limanında eniş etməyə icazə verməyib.**

APA xəbər verir ki, bu barədə ”Sputnik Armenia” xəbər yayıb.

Aviaşirkətin direktorlar şurasının rəhbəri məlumatı təsdiqləyib.

İçində 37 sərnişinin olduğu təyyarə İrana eniş etməyə məcbur qalıb, hazırda İrəvana qayıdır.

Şirkət hazırda qadağanın səbəbini araşdırır.


❒ № 81 (5842) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 may 2023-cü il (cümə)




## Azərbaycan və Türkiyə ordusu...

### Bu il 10-dan çox birgə təlim keçirəcək

**”Hər il həm Azərbaycanda, həm də Türkiyədə ortaq hərbi təlimlər keçirilir. 2023-cü ildə 10-dan çox birgə təlimin keçirilməsi planlaşdırılıb”.**

“Anadolu” agentliyi xəbər verir ki, bu fikirləri Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov türkiyəli həmkarı Hulusi Akarla birlikdə Konyada keçirilən ”Anadolu Qartalı-2023” beynəlxalq taktiki-uçuş təlimləri çərçivəsində çıxışı zamanı deyib.

O bildirib ki, Vətən müharibəsi iki qardaş xalq arasında əlaqələrin hansı səviyyədə olduğunu bir daha nümayiş etdirdi.



## İlham Əliyev “Total Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də ”Total Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul edib.**

Görüşdə SOCAR ilə "Total Energies" arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. ”Abşeron” qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olundu.

Nikolas Terraz ”Total Energies” şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq, ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirdi.

Söhbət zamanı ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpaolunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

## Təxribatlar sülh prosesini baltalayır

### ATƏT Daimi Şurasının iclasında Ermənistanın sərhəddəki son təxribatı ilə bağlı məsələ qaldırıldı




**ATƏT Daimi Şurasının iclasında Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi son təxribatla bağlı məsələ qaldırılıb.**

Bu barədə Azərbaycanın ATƏT-dəki daimi nümayəndəsi Rövşən Sadıqbəyli "Twitter" hesabında bildirib.

"Bu cür əməllər sülh prosesini baltalayır və beynəlxalq ictimaiyyət tərəfindən qınanılmalıdır. Ermənistanın sülhə məcbur edilməsi və onu normallaşma prosesinin məntiqində saxlanılması üçün əlavə tədbirlər görülməlidir”, - deyə o qeyd edib.

# Ermənistan sülhə atəş açdı

## Böyük ehtimalla əmr yenə də Rusiyadan gəlib



**Mayın 10-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib.**

Müdafiə Nazirliyindən bildirilib ki, qarşı tərəfin hədəfli atəşi nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Orxan Novruzəlizadə şəhid olub. Digər hərbçimiz - Müslüm Mahmudlu isə başından ağır yaralanıb. Yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə çatdırılıb.


(səh.3)






## Ərdoğan təəssüfləndi

### Məhərrəm İncə böyük mübarizədən çəkildi

“İndi Ərdoğanla Kılıcdaroğlunun qələbə qazanmaq şansları, demək olar ki, bərabərdir”

Türkiyənin Məmləkət Partiyasının sədri Məhərrəm İncə prezidentliyə namizədlikdən imtina edib. İncə qeyd edib ki, ona qarşı qarayaxma kampaniyası başladılıb. Xatırladaq ki, Məhərrəm İncəyə aid olması iddia edilən qeyri-etik videolar, o cümlədən, 5 milyon dollarlıq birdəfəlik gəlir əldə etməsi haqqında məlumatlar yayılmışdı.


(səh.4)




## Türkiyə “Taxıl dəhlizi sazişi"nin uzadılmasına ümid edir

**Türkiyə ”Taxıl dəhlizi sazişi”nin uzadılmasına ümid edir.**

APA-nın İstanbul müxbirinin "DHA" agentliyinə istinadən verdiyi xəbərə görə, bu barədə Türkiyə milli müdafiə naziri Hulusi Akar ”Anadolu Qartalı 2023” təlimlərinin nəticələrinə dair keçirilən brifinq zamanı bildirib.

O qeyd edib ki, İstanbulda Türkiyə, Rusiya, Ukrayna və BMT nümayəndələri arasında dünən başlayan və bu gün davam edən danışıqlar müsbət nəticələnə bilər.

O, həmçinin Ukrayna limanlarında Türkiyəyə məxsus ticarət gəmilərinin qaldığını xatırladaraq, buna dair danışıqların davam etdiyini əlavə edib.

## "Şirinlik" verməyin!"

### Elm və Təhsil Nazirliyi valideynlərə çağırış edib




**”Birincə sinfə qəbul zamanı məktəb direktorunun hər hansı valideyndən ”şirinlik” istəməsi qanun pozuntusudur”.**

Bunu Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdir müavini Orxan Abbasov deyib.

O bildirib ki, buna görə də valideynlər öz hüquqlarının müdafiə etməlidir.

Nazirlik rəsmisi vurğulayıb ki, belə hallarla qarşılaşan valideynlər hüquq-mühafizə orqanlarına müraciət edə, eyni zamanda birbaşa nazirliyə və digər aidiyyəti qurumlara yazılı şəkildə şikayət göndərə bilərlər: "Bu prosesdə birbirimizə yardımçı olmalıyıq. Elektron sistem şagirdin qəbulu barədə sms göndərirsə, məktəbin bu məsələdə əsas rolu toplanılan sənədləri qəbul etməkdir. Bütün sənədlər qaydasındadırsa, məktəbin həmin uşağı qəbul etməmək kimi şansı yoxdur”.



## "Ancaq pul haqqında düşünürlər"

### Çingiz Abdullayev: “Maşın ustaları ilə həkimlərə inam yoxdur”


(səh.4)




## Brüssel görüşü baş tutacaq

### Ardınca Moskvada tərəflər bir araya gəlmək üçün imkanlarını əldən verməyəcəklər


(səh.3)


## Əməkdar artist xəstəxanadadır, vəziyyəti ağırdır



**Kinorejissor, aktyor, Əməkdar artist Elxan Qasımov özəl xəstəxanaların birində müalicə alır.**

Bu barədə APA-ya kinorejissorun qızı məlumat verib. O, atasının səhhətinin ağır olduğunu vurğulayıb.

*Xatırladaq ki, dünən Mədəniyyət Nazirliyi Əməkdar artistin səhhəti ilə bağlı məsələni nəzarətə götürdüyü barədə məlumat yayıb.*




# Şavkat Mirziyoyev Prezident İlham Əliyevə məktub göndərib

## Özbəkistan-Azərbaycan əlaqələrinin inkişafında Heydər Əliyevin misilsiz xidmətləri hər zaman ehtiramla xatırlanacaq

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə məktub göndərib.**

**Məktubda deyilir:**

**Möhtərəm İlham Heydər oğlu!**

**"Əziz qardaşım!**

Sizi və qardaş Azərbaycan xalqını mühüm tarixi hadisə - ölkənizin Ümummilli Lideri, görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu unudulmaz gündə Azərbaycan xalqının dahi oğlu və əsl vətənpərvər şəxsiyyətin unudulmaz xatirəsini sonsuz qürur hissi ilə yad edərək, xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyev öz güclü iradəsi və nadir liderlik qabiliyyəti ilə müasir Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və onun yeni dövlətçiliyinin təməlinin qoyulmasına, millətin birliyinə, həmrəyliyinə misilsiz töhfələr vermişdir.

Eyni zamanda, Özbəkistan ilə Azərbaycan arasında çoxşaxəli və uzunmüddətli münasibətlərin hərtərəfli inkişafı, dost və qardaş ölkələrimizin əlaqələrinin möhkəmləndirilməsi istiqamətində bu dahi şəxsiyyətin misilsiz xidmətlərini hər zaman yüksək ehtiram duyğuları ilə xatırlayacağıq.

Mübaliğəsiz qeyd etmək olar ki, bu əlamətdar yubiley münasibətilə Özbəkistanda Heydər Əliyevin mənalı həyat yoluna və örnək fəaliyyətinə həsr olunmuş çoxsaylı dəyirmi masalar, müxtəlif mədəni-maarif tədbirləri, elmi-bədii ədəbiyyatların nəşri özbək xalqının bu dahi şəxsiyyətə hədsiz ehtiramının parlaq ifadəsidir.

**Hörmətli İlham Heydər oğlu!**

Biz Zati-alinizi - möhtərəm atanızın başladığı şərəfli yolun layiqli davamçısını, ölkəsinin nüfuzunu beynəlxalq aləmdə böyük dərəcədə artıran və tarixi ədaləti bərpa edən mahir siyasi xadimi Özbəkistanın əsl dostu kimi tanıyırıq, həmçinin strateji tərəfdaşlığımızın yeni səviyyəyə yüksəlməsi üçün Sizin fəal səylərinizi tam dəstəkləyirik.

Xüsusilə və böyük məmnunluqla qeyd etmək istərdim ki, son zamanlar aramızda yaranan və möhkəm etimad ruhunda qurulmuş dialoqlarımız, cari ilin mart ayında Bakıda apardığımız açıq və səmərəli danışıqlarımız ikitərəfli və çoxtərəfli münasibətlərimizin inkişafına böyük təkan vermişdir.

Bununla yanaşı, yaxın gələcəkdə baş tutacaq ali səviyyədə səfərimiz zamanı əldə ediləcək mühüm razılaşmalar, əməkdaşlığımızın genişləndirilməsinə yönəlmiş dəqiq layihələr və əməli proqramlar şübhəsiz ki, hərtərəfli əlaqələrimizi daha yüksək səviyyəyə qaldıracaqdır.

Atanız Heydər Əliyevin nurlu xatirəsinin qəlblərimizi işıqlandırdığı bu günlərdə Sizə və bütün ailə üzvlərinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh və əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram".

# Qazaxıstanın yeni səfiri Azərbaycana gəldi

## Alim Bayel etimadnaməsinin surətini Ceyhun Bayramova təqdim edib

**Xarici işlər naziri Ceyhun Bayramov Qazaxıstanın Azərbaycandakı yeni səfiri Alim Bayel ilə görüşüb.**

**XİN-dən "Şərq"ə bildirilib ki, görüş zamanı, səfir etimadnaməsinin surətini nazirə təqdim edib.**



C.Bayramov səfir Alim Bayeli təyinatı münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan və qardaş Qazaxıstan arasında ikitərəfli əməkdaşlıq gündəliyində duran bir sıra məsələlər, siyasi, iqtisadi, enerji, humanitar, təhsil, turizm və digər sahələrdə, habelə çoxtərəfli platformalarda əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir ortaq etnik, mədəni və tarixi köklərə əsaslanan Azərbaycan və Qazaxıstan arasında genişmiqyaslı ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətləri və onların inkişaf perspektivlərini məmnunluqla qeyd edib.

Öz növbəsində, səfir Alim Bayel diplomatik fəaliyyəti dövründə iki ölkə arasındakı əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Azərbaycan və Qazaxıstan arasında geniş əməkdaşlıq potensialının olduğunu bildirən səfir Alim Bayel, ölkələr arasında turizm, enerji, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini ifadə edib.

Görüş zamanı, habelə beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı və digər çərçivələrdə vacib istiqamətlər üzrə birgə səylərin artırılmasının vacib olduğu vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Aygün**

# Hər iki görüşdə İrəvanı çətinliklər gözləyir

## Bakı Kişinyov masasına əlini gücləndirmiş şəkildə əyləşə bilər

Ermənistan sərhəd hücumu ilə Brüssel və Moskva danışıqlarının gündəliyini dəyişmək, Fransanın olacağı masaya qədər prosesi pozmağa çalışır



"**Sərhəddə baş verən təxribat əsas diqqəti Rusiyanın üzərinə yönəldir" . Bu sözləri siyasi şərhçi Asif Nərimanlı deyib.** Analitik bildirib ki, görünür, Nikol Paşinyan rusların istəyinin əleyhinə olaraq, Qərb masasından qalxmaq istəmir: "Moskva Paşinyanın da bundan əvvəlki təxribatda işarə verdiyi "beşinci kalon" üzərindən toqquşma yaradır. Hərçənd, iki məqam bu təxribatın Ermənistan hakimiyyətinin plana uyğun törətdiyi versiyasını önə çıxarır. Birincisi, Nikol bu dəfə "beşinci kalon"u yox, Bakını ittiham etdi. İkincisi, Vaşinqtonda faktiki anlaşmayan tərəflər İrəvanın marağında olmadığı Brüssel və Moskva görüşünə hazırlaşır. Ermənistan bu iki görüşü problem olaraq görür. Bunu Vaşinqtonda razılaşdırılmayan məqamlarda görmək mümkündür. Sərhəd məsələsində İrəvan "29,8 min kvadrat kilometr ərazi"ni saxlamaq istəyir. Qarabağ məsələsində separatizmin qalmasına çalışır".

Ekspertin fikrincə, Paşinyan Fransanın əsas moderatoru olacağı Kişinyov görüşündə bu məsələlər üzərindən qazanclı çıxmağa hazırlaşır: "Lakin bundan öncə keçiriləcək iki görüş planına uyğun gəlmir. Brüsseldə liderlər görüşəcək və Qarabağın Azərbaycanın daxili məsələsi olduğuna dair əvvəlki razılaşmalar yenidən aktuallaşacaq. Moskvada XİN rəhbərlərinin görüşündə üçtərəfli razılaşmalar müzakirə olunacaq. Xüsusilə sərhədin hansı xəritələr üzərindən delimitasiya olunması ön plana çıxa bilər. Paşinyan "8 kəndə qarşılıq erməni kəndləri" iddiasını gündəmə gətirsə də, İrəvanın əsas istəyi "güzgü prinsipi"nin tətbiq edilməsi - orduların sərhəddə əvvəlki xətlərə çəkilməsidir. Hər iki görüşdə İrəvanı çətinlik gözləyir. Bakı Kişinyov masasına əlini gücləndirmiş şəkildə əyləşə bilər. Ermənistan sərhəd hücumu ilə Brüssel və Moskva danışıqlarının gündəliyini dəyişmək, Fransanın olacağı masaya qədər prosesi pozmağa çalışır. Mümkündür ki, təxribatlar davam etsin".

**İsmayıl**

# Kılıçdaroğlu hakimiyyətə gəlsə...

## ...Rusiyaya qarşı sanksiyalara qoşulacaq



"CHP sədri Türkiyənin atom silahına sahib daha güclü ölkə olmaq imkanının da qarşısını alacaq"

**Türkiyədə seçki öncəsi "Millət İttifaqı"nın namizədi, CHP sədri Kamal Kılıçdaroğlunun vədlərindən biri də Rusiya ilə bağlıdır. Kılıçdaroğlu seçkidən öncə Moskvaya mesaj da verib.**

Bildirib ki, seçiləcəyi təqdirdə Türkiyənin Rusiyaya qoyduğu investisiyaları qorumaqla bərabər, Qərb ölkələrinin Rusiyaya qarşı sanksiya tətbiqi ilə bağlı verdiyi qərarlara əməl edəcək: "Türkiyə NATO üzvüdür və Putin də bunu çox yaxşı bilir. Türkiyə Alyansın qəbul etdiyi qərarlara əməl etməlidir". Qeyd edək ki, Ərdoğanın rəhbərliyində Türkiyə Rusiyaya qarşı BMT xaricində heç bir sanksiyaya qoşulmayıb və fərqli bölgələrlə bağlı bir sıra məsələlərdə Moskva ilə əməkdaşlıq edib. Daha doğrusu, Ərdoğan Qərbin öz maraqları naminə Rusiyaya tətbiq etdiyi sanksiyalara qoşulmaqdan imtina edib. Amma görünən odur ki, Kılıçdaroğlu Qərb nə desə, onu edəcək.

**AĞ Partiyanın sədr müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Kılıçdaroğlu hakimiyyətə gəlsə, nəinki Rusiyaya qarşı sanksiyalara qoşulacaq, Akkuyu Atom Elektrik Stansiyasından da imtina edəcək. Yəni Türkiyənin atom silahına sahib daha güclü ölkə olmaq imkanının qarşısını alacaq:** "Nəticədə Türkiyənin dünyanın bir sıra yerlərində olan hərbi bazaları ortadan qalxacaq, ölkənin siyasi-iqtisadi mövcudluğuna soy qoyacaq. Şübhə yox ki, Türkiyə Liviyadan, Qətərdən, Yaxın Şərqdən, Cənubi Qafqazdan çəkiləcək. Kılıçdaroğlu Amerika nə deyəcəksə, onu edəcək və Türkiyəni ötən əsrdə hökm sürmüş səfalət və zəiflik dövrünə qaytaracaq. Məhz o səbəbdən ABŞ CHP sədri Kamal Kılıçdaroğlunun Türkiyədə hakimiyyətə gəlməsini istəyir. Kılıçdaroğlunun Rusiyaya seçki öncəsi verdiyi mesajlarda təəccüblü heç nə yoxdur. Türkiyə NATO üzvü olsa da, Rusiyaya qarşı sanksiyalara qoşulmaq məcburiyyəti yoxdur. Hər şey, o cümlədən müttəfiqlik də qarşılıqlı olmalıdır. Türkiyə Rusiyaya məxsus təyyarəni vuranda Ankara NATO-dan dəstək istəmişdi. NATO generalları dolayı yolla dedilər ki, "problemi özünüz yaratmısınız, özünüz də çözün". Vaxtı ilə Rusiya və Türkiyəni üz-üzə qoyan NATO indi Ankaradan heç nə tələb edə bilməz".

**Ə.Məmmədli vurğulayıb ki, Türkiyə müstəqil ölkədir, öz milli maraqları var:** "Hərbi alyansın üzvü olmaq müstəqillikdən imtina etmək anlamına gəlmir ki?! Azərbaycan da MDB üzvüdür, indi biz də Rusiyanın dediyi ilə oturub-durmalıyıq? Amerika Türkiyənin dünya liderliyini əlindən almaq üçün ölkədəki anti-milli qüvvələrdən, HDP kimi xainlərdən istifadə edir. Türkiyədəki indiki siyasət yüz il öncə Osmanlı sultanı, xəlifə Əbdülhəmidin başına gətirilmişdi. Eyni senarini hazırda prezident R.T.Ərdoğan üzərində tətbiq edirlər. O vaxt "gənc türklər" adlı hərəkatından istifadə edirdilər, indi də "altılı masa"dan faydalanırlar. Əbdülhəmidin gedişi Osmanlını dağıtdı, Ərdoğanı göndərməklə Türkiyəni dağıtmaq niyyəti güdürlər. İnşallah, Türkiyənin milli, vətənpərvər qüvvələri buna imkan verməz".

**İsmayıl Qocayev**

**İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzura səfər edən İsveçin beynəlxalq səyahətçilər elitasının cəmləşdiyi "Klub 100" təşkilatının 30 nəfərdən çox heyəti Füzuli və Xocavənd rayonlarından sonra Ağdama gəliblər.**

**AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, xarici səyahətçilər Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar.**

İsveçli səyyahlar Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini və mədəni abidələrə baxış keçiriblər.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən onlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə ətraflı məlumat verilib.



# İsveçli səyahətçilər Ağdamda

## Erməni vandalizminin şahidi oldular

Bildirilib ki, Ermənistan işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən biri olub. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra şəhərdə və rayonun kəndlərində evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Ağdam Çörək muzeyinin dağıntıları ilə də tanış olan səyyahlara məlumat verilib ki, şəhərdəki bütün tikililər kimi, bu bina da erməni barbarları tərəfindən dağıdılıb, eksponatları isə ya məhv edilib, ya da talan olunub. Dünyada ikinci hesab edilən bu muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərindən (oraq, xış, taxıldöyən vərdənə və s.) bəhs edən müxtəlif dəyərli nümunələr olub.

Xarici səyyahlar sonra Ağdam şəhər Cümə məscidinə gəliblər.

Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində mal-heyvan saxlayıblar. Ağdam şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən məscidin bərpasına başlanılıb.

Qonaqlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə-yeksan etdikləri binaların qalıqlarına da baxıblar. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir. Onlara ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, teatr binasının qalıqları gələcəkdə açıq səma altında muzeydə saxlanılacaq.

İsveçli səyyahlar sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olublar. Məlumat verilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Səyyahlar həmçinin Ağdamda həyata keçirilən quruculuq işləri barədə də məlumatlandırılıblar. Bildirilib ki, Azərbaycan qısa müddətdə, özü də heç bir xarici maliyyə dəstəyi olmadan xarabalıqlarda cənnət yaradır.

Qeyd edək ki, qrupa "Club 100"un İdarə Heyətində təmsil olunan Bengt Hildebrand rəhbərlik edir. Bu nüfuzlu regional klub yalnız Skandinaviya əsilli beynəlxalq səyahətçiləri birləşdirməsi ilə tanınır. Heyətin 3 gün ərzində avtomobil yolu ilə Füzuli-Xocavənd-Ağdam-Tərtər-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl (Xudafərin) xətti üzrə hərəkət etməyi planlaşdırılır.

Bu səfər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması üçün müstəsna əhəmiyyət daşıyır. Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels" Klubunun geniş tərkibdə heyətlərinin ötən 2 ildə 6 dəfə Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunub. Onlardan biri 2021-ci ildə, dördü 2022-ci ildə, biri isə 2023-cü ildə reallaşdırılıb. İsveçdən olan səfər bu qəbildən olan sayca 7-ci səfərdir.

Bu səfərlər çərçivəsində 200-dən çox dünyada tanınan səyyah Qarabağ və Şərqi Zəngəzurla yerində tanış olublar.



# Qarabağın hər bir rayonunda məscidlər bərpa olunur

## Bu, həm də Prezident və ailə üzvlərinin milli-mənəvi dəyərlərimizə nə qədər bağlı olduqlarını göstərir

**Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Şuşada Yuxarı Gövhər Ağa və Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidlərinin açılışında iştirak ediblər. Prezident və birinci xanım Mehriban Əliyevaya məsciddə görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Yuxarı Gövhər Ağa məscidində 2021-ci ilin sonlarından aparılan bərpa işləri başa çatıb.**

Məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Məscidin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabağidir. Bu, müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib. Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib. Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədi ilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universiteti nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasında araşdırılıb. Bugünədək məsciddə möhkəmləndirmə işləri görülüb. İşğal dövründə məscidə ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılıb. Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri aparılıb. Minarələrin boya işləri və qoruyucu qatın tətbiqi yekunlaşıb, məscidin dam örtüyünün qurulması həyata keçirilib. Məlumat verilib ki, bərpa işləri mədrəsə binasını da əhatə edib. Məscidin mədrəsə hissəsində taxta dam konstruksiyanın qurulması işləri tamamlanıb. Mövcud döşəmə örtüyünün sökülməsi və qalıqların təmizlənməsi işləri başa çatdırılıb. Hazırda mədrəsə binasının ərazisində məscid minarəsinin ornamentləri və otaqların rəsmlərini işləmiş Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunan sərgi açılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Saatlı məscidinin də açılışında iştirak ediblər. Bildirilib ki, Şuşadakı Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun gücləndirilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib. Aparılan analizlər nəticəsində minarənin üzərindəki naxışların ilkin rəngi müəyyən olunub və minarə ona uyğun bərpa edilib, ornamentlər bütün incəliklərinə qədər qorunub saxlanılıb. Dövlət başçısı, birinci xanım və ailə üzvləri məscidin həyətində ağac əkiblər.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda bərpa və quruculuq işləri sürətlə aparılır. Yaşayış binalarının, məktəb və bağçaların inşası ilə yanaşı tarixi-dini abidələrimizin bərpasına da xüsusi önəm verilir. Hər bir rayonda məscidlərin bərpasına və yenilərinin inşasına xüsusi diqqət və həssaslıqla yanaşılır. Bu, həm də Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin milli-mənəvi dəyərlərimizə nə qədər bağlı olduqlarını göstərir. Həmçinin din-dövlət münasibətlərinin nə qədər inkişaf etməsindən xəbər verir.

**Millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, Prezident və birinci xanımın Qarabağa, Şərqi Zəngəzura növbəti səfərlərini və əvvəlki vaxtlarda olduğu kimi yeni obyektlərin, mədəniyyət abidələrinin təməlinin qoyulmasının şahidi olduq. Eyni zamanda Şuşada Yuxarı Gövhər Ağa və Saatlı məscidlərində aparılan təmir-bərpa işlərinin yekunlaşdığının şahidi olduq:** "Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyev səviyyəsində milli-mənəvi dəyərlərimizə dövlətin qayğısı ən yüksək səviyyədədir. Bu gün Azərbaycanda məscidlər dövlət tərəfindən təmir və bərpa olunur. Dünyanın çox az ölkəsində məscidlərin inşasını, təmir-bərpa işlərini dövlət öz üzərinə götürür. Azərbaycan azsaylı ölkələrdəndir ki, məscidlərimizə, dini abidələrimizə daim diqqət və qayğı göstərir. Bu həm də cənab Prezidentin, birinci xanım Mehriban Əliyevanın milli-mənəvi dəyərlərimizə, onların qorunmasına, Azərbaycanda dövlət-din münasibətlərinin ən yüksək səviyyədə tənzimlənməsinə xüsusi həssaslıqla yanaşdıqlarını bir daha açıq-aydın göstərir. Bu siyasət nəticəsində Azərbaycan dünyada tolerantlığın, multikulturalizmin mərkəzlərindən birinə çevrilib. Azərbaycanda bütün dinlərin nümayəndələri sülh və qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Ölkəmizdəki ənənənin möhkəmlənməsinə öz töhfələrini verirlər".

**İsmayıl Qocayev**

# Ermənistan sülhə atəş açdı

## Böyük ehtimalla əmr yenə də Rusiyadan gəlib

**Mayın 10-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib. Müdafiə Nazirliyindən bildirilib ki, qarşı tərəfin hədəfli atəşi nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Orxan Novruzəlizadə şəhid olub.**



"Moskva son günlər cərəyan edən proseslərdən, Vaşinqton danışıqlarından narazılığını gizlətmir, etirazını açıq bildirir"

Digər hərbçimiz - Müslüm Mahmudlu isə başından ağır yaralanıb. Yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə çatdırılıb. Mayın 11-i səhər saatlarında Ermənistan tərəfi Azərbaycanla sərhədə əlavə texnika və canlı qüvvə cəlb edərək Ordumuzun mövqelərini minaatanlardan atəşə tutub, təxribatların miqyasını genişləndirməyə cəhd edib. Azərbaycan XİN-in məlumatına görə, baş verən təxribatlar Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir. Qeyd olunub ki, Ermənistanın təxribatları hər zaman olduğu kimi sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında gözlənilən danışıqlar fonunda baş verir. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Moskva yeni gərginlik fonunda Ermənistan və Azərbaycandan təmkinli yanaşma gözləyir. O, Ermənistan və Azərbaycan arasında yeni gərginlik fonunda Rusiya Prezidenti Vladimir Putinin İlham Əliyev və Nikol Paşinyanla təmaslarının hazırda planlaşdırılmadığını söyləyib. Kremlin sözçüsü 9 May Qələbə günü Ermənistanın Baş nazirinin səfəri zamanı Moskvada Putinlə Paşinyan arasında ayrıca söhbət olduğunu da xatırladıb.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan və Ermənistan arasında sülhün imzalanmasında maraqlı olmayan tərəflər - Rusiya, İran və İrəvandır. Partiya rəhbərinin sözlərinə görə, təxribatlar bu üç tərəfin hər birinin təşəbbüsü ilə baş verə bilər:** "Böyük ehtimalla indiki təxribatın arxasında Rusiya dayanır. Moskva son günlər cərəyan edən proseslərdən, Vaşinqton danışıqlarından narazılığını gizlətmir, etirazını açıq bildirir. Nəticəsinin nə olmasından asılı olmayaraq, Vaşinqton təmaslarının günlərlə davam etməsi, ardınca Brüsseldə görüşün planlaşdırılması Rusiyanı hiddətləndirirdi. Kremlin proseslərə müdaxilə etməsinin yeganə yolu sərhəddə, yaxud Qarabağda təxribatlar törətmək, qarşıdurma yaratmaqdır. Paşinyanın mayın 9-da Rusiyaya səfər etməsi, Kremlin Qafqaz üzrə xüsusi nümayəndəsinin İrəvana gələrək görüşlər keçirməsi, ardınca Paşinyanın güc nazirləri ilə xüsusi iclası heç də təsadüfi deyil. Görünür, erməni Baş nazir Moskvadan xüsusi tapşırıq alıb və onu icra edib. Paşinyan təxribatdan sonra həyasızcasına Azərbaycanı ittiham edir, bizi suçlayır".

**A.Nağı vurğulayıb ki, Azərbaycan qalib ölkədir və tezliklə sülhün imzalanmasında maraqlıdır:** "Yəni prosesi pozan tərəf biz deyilik. Ancaq Ermənistan məğlub tərəf olduğuna görə uduzmuş halda müqavilənin bağlanmasını istəmir. Rusiya da bəlli səbəblərdən prosesin nizamlanmasını arzulamır. Azərbaycan çevik hərəkət edir. Ancaq gec-tez güc faktorundan istifadə etmək məcburiyyətində qalacağıq. Görünən odur ki, "addım-addım irəliləyişlə" hədəfə nail olmaq çox çətindir. Ermənistan bir addım irəli atırsa, arxasınca iki addım geri atır. Düşmənə növbəti ağır zərbə vurulmalıdır ki, təxribatlara son qoysun və sülhə razılıq versin".

**İsmayıl Qocayev**



# "Atəşkəs müharibənin bitdiyi anlamına gəlmir"

## Ermənistandan istifadə edərək, regionda vəziyyəti gərginlikdə saxlamaq istəyən qüvvələr var

**"Növbəti təxribat da digərləri kimi gözlənilən idi. Azərbaycanla Ermənistan arasında hələ də sülh müqaviləsi bağlanmayıb".**

*Bunu "Şərq"ə ehtiyatda olan polkovnik Şair Ramaldanov Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti təxribatdan danışarkən deyib. Onun sözlərinə görə, atəşkəsin elan edilməyi müharibənin bitdiyi anlamına gəlmir:* "Tərəflər arasında atəşkəs rejimi olsa da, İkinci Qarabağ müharibəsində qazandığımız zəfərdən sonra Ermənistan mütəmadi şəkildə təxribatlarına davam edib. Bu da erməni hərbi-siyasi rəhbərliyinin heç də konstruktiv mövqe tutmaq istəmədiyini göstərir. Kənar qüvvələr sülh müqaviləsinin bağlanmasını əngəlləmək üçün kifayət qədər təzyiq edirlər. Nəticədə də düşmən ölkə müstəqil qərar qəbul edə bilmir. Erməni cəmiyyəti çox gözəl başa düşür ki, sülh müqaviləsi bağlansa, Zəngəzur dəhlizi və Ermənistan-Türkiyə sərhədi açılsa, bu, iqtisadi yüksəlişə gətirib çıxaracaq. İqtisadi yüksəlişlər isə stabilliyə aparan yoldur. Bu da insanların sosial problemlərinin həllində çox müsbət rol oynaya bilər. Amma Ermənistanda gedən proseslər göstərir ki, Sovetlər Birliyi dağılsa da, müstəqillik əldə edilsə də, rəsmi İrəvan həmişə asılı olub. Rəsmi İrəvanın əlindən bu və ya digər güclərin sifarişini yerinə yetirməkdən başqa heç nə gəlmir. Belə olduğu halda, Ermənistanın hərbi-siyasi rəhbərliyinə kim gəlsə də, yenə erməni xalqının yox, xarici qüvvələrin marağını təmin etməklə məşğul olacaqlar. Düşmən tərəfin qələbəmizdən 2 il keçməsinə rəğmən, sülh müqaviləsini bağlamaqdan boyun qaçırmasının səbəbi onları hakimiyyətə gətirən qüvvələrin bunu istəməməsidir. Paşinyan özü də dəfələrlə yekun sülhün imzalanmasının tərəfdarı olduğunu bildirib".

Ekspert regionda Ermənistandan istifadə edərək, vəziyyəti gərgin saxlamaqda maraqlı qüvvələrin çox olduğunu diqqətə çatdırıb: "Sülh müqaviləsinin imzalanmasına həm Rusiya, həm də Qərb mane olur. Azərbaycan Ermənistanın təxribatlarının qarşısını almaq üçün lazımi addımları atır. Sülh müqaviləsinin bağlanması yolunda əlindən gələni edir. Vaşinqton görüşünü Azərbaycanın öz maraqlarını daha da möhkəmləndirməsi və sülh müqaviləsinin bağlanmasına doğru getməsi kimi qiymətləndirmək mümkündür. Ona görə də dövlətimiz yaranmış vəziyyətdə geosiyasi arenada gedən prosesləri nəzərə alaraq, ehtiyatını, təhlükəsizliyini tam şəkildə qorumalıdır".

*Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutub. Qəsdən törədilən təxribat nəticəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzəlizadə Orxan Elxan oğlu şəhid olub. Hərbi xidmət hərbi qulluqçusu Mahmudlu Müslüm Vidadi oğlu başından ağır yaralanıb. Yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə çatdırılıb. Azərbaycan Ordusunun bölmələri qəti cavab tədbirləri görür. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.*

**Sücayət Mehti**

# Brüssel görüşü baş tutacaq

## Ardınca Moskvada tərəflər bir araya gəlmək üçün imkanlarını əldən verməyəcəklər

**Ötən il Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Prezident İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında bir neçə görüş keçirilib. Dekabr ayında, məhz Ermənistan tərəfi Brüsseldə eyni formatlı görüşdə iştirakdan imtina edib, bununla da prosesə maneçilik törədilib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə deyib ki, rəsmi Bakı ötən il baş tutmamış, may ayında yenidən bərpa olunması planlaşdırılan Brüssel görüşünə razılıq verib: "Eyni zamanda Kişinyovda Avropa Siyasi İcmasının növbəti iclası çərçivəsində Fransa Prezidenti və Almaniya Kanslerinin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirilməsi təklif olunub. Azərbaycan tərəfi öz növbəsində, Brüssel formatını əvəz etməmək və bu formatı dəyişdirməmək şərtilə Kişinyovda qeyri-formal görüşdə Azərbaycan tərəfinin iştirakının mümkün olduğunu bildirib. Bununla yanaşı, sözügedən görüşün təfərrüatları barədə müfəssəl məlumat verilmədiyi nəzərə alınaraq, Kişinyov görüşündə iştiraka dair yekun razılıq hələlik mövcud deyil".



Putinin Moskvada Paşinyanın qulağına hansı sözləri pıçıldadığını sərhəddəki toqquşmalar açır

Ermənistan Baş naziri Nikol Paşinyan da hökumətin dünən keçirilən iclasında deyib ki, mayın 14-də üçtərəfli görüşün planlaşdırıldığı Brüsselə səfərini ləğv etmək niyyətində deyil. Bununla yanaşı, Paşinyan bildirib ki, mayın 14-də Azərbaycanla sülh sazişinin imzalanması ehtimalı azdır. Çünki sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair ikitərəfli saziş layihəsi hələ ilkin xarakter daşıyır: "İmzalamaq hələ tezdir. Digər tərəfdən, bizim sənədi mümkün qədər tez hazırlayıb imzalamaqla bağlı vəzifəmiz var". ABŞ dövlət katibi Entoni Blinken də Şarl Mişellə telefon danışığında Azərbaycan və Ermənistan arasında dayanıqlı və uzunmüddətli sülhün dəstəklənməsi üçün fürsətləri müzakirə edib. Kornegi Fondunun tədqiqatçısı Tomas de Vaal bildirib ki, hələlik söhbət ikitərəfli sazişlərdən gedir, bu, sülh sazişi deyil, çərçivə sazişidir: "Bu, iki liderin ümumi prinsiplər əsasında imzalaya biləcəyi qısa sənəddir, Qarabağ ermənilərinin gələcəyi məsələsi burada yer almayacaq". Vaal bildirib ki, bu sənəddə Naxçıvana yol da əksini tapmayacaq: "Söhbət texniki sənəddən gedir, ciddi sülhdən yox".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib ki, Paşinyan son açıqlamalarının birində Avropa İttifaqının rəhbəri Şarl Mişelin vasitəçiliyindən narazılığını bildirmişdi. Analitikə görə, Paşinyan Mişeldən ona görə narazıdır ki, Avropa İttifaqının rəhbəri Azərbaycanla Ermənistan arasında qısa zaman kəsiyində sülh sazişinin imzalanmasını istəyir və bu zaman Qarabağ məsələsinə toxunmur:** "Paşinyan Mişelin "gəlin Brüsseldə yenidən üçtərəfli görüş keçirək" təklifinə birbaşa "yox" deyə də bilmir. Ancaq danışıqlarda nəticə əldə edilməməsi üçün müzakirələrdən bir neçə gün əvvəl sərhəddə təxribata yaşıl işıq yandıra bilər".

**Siyasi şərhçi Aqşin Kərimov da hesab edir ki, Vaşinqtonda Azərbaycan və Ermənistan XİN başçıları arasında aparılan müzakirələr sülhə bir addım yaxınlaşma əlamətlərini göstərir. Hərçənd ki, görüləsi və geniş diskussiya mövzusu olacaq məsələlər hələ də açılmamış düyün kimi qalır:** "Vaşinqtondan sonrakı düyünləri açmaq üçün Rusiya və Avropa İttifaqı bir-birilə "didişdilər". Lakin Bakı-İrəvan kanalı Moskvadan öncə Brüssel formatına üstünlük verdiyini nümayiş etdirdi. Sərhəddəki toqquşmalar Rusiyanın Brüssel formatını etibarsızlaşdırmaq və ya həmin görüşdən sonra Moskvanın daha etibarlı olduğunu göstərmək üçün planı kimi dərk edilə bilər. Nikol Paşinyanın özü də Rusiyaya az pas atmır. Paşinyan mayın 4-də bəyan etdi ki, Avropa İttifaqının monitorinq missiyasını Ermənistana dəvət etmək barədə qərar asan olmayıb. Çünki Aİ missiyası təhlükəsizliyə zəmanət vermir, əksinə, yeni çağırışlar yaradır. Bu, Paşinyanın Rusiya meydanına atdığı topdur. Məqsədi "mən Aİ missiyasından imtina edə bilərəm, lakin əvəzində sərhədə KTMT kontingenti göndərilsin" ismarışını çatdırmaqdır. Paşinyan 9 may Qələbə paradında iştirak üçün Moskvaya getdi. Onun Rusiya Prezidenti Vladimir Putinin qulağına hansı sözləri pıçıldadığını və Putinin ona hansı cavablar verdiyini sərhəddəki toqquşmalar açır. Əgər Paşinyan bu addımlarını Moskvada razılaşdırıbsa, onda məntiqi bir fikir ortaya çıxır ki, Ermənistan mayın 14-də gözlənilən Brüssel görüşünün ləğvinə çalışır. Hər halda danışıqlardan əvvəl Ermənistanın Zod istiqamətində əlavə qüvvə cəmləşdirməsi insidentin miqyasını genişləndirmək cəhdindən xəbər verir ki, bu da sülh gündəliyindəki praqmatik ideyaları zədələyə bilər. Ancaq hesab edirik ki, Brüssel görüşü baş tutacaq və ardınca Moskvada tərəflər bir araya gəlmək üçün imkanlarını tükətməyəcəklər.

Ermənistana dəstəklər bu müddətdə dekorativ xarakter daşıyacaq və mahiyyət etibarı ilə Azərbaycanın strateji maraqlarının önünə keçə bilməyəcək".

**İsmayıl Qocayev**



"İndi Ərdoğanla Kılıcdaroğlunun qələbə qazanmaq şansları, demək olar ki, bərabərdir"



# Ərdoğan təəssüfləndi

## Məhərrəm İncə böyük mübarizədən çəkildi

**Türkiyənin Məmləkət Partiyasının sədri Məhərrəm İncə prezidentliyə namizədlikdən imtina edib. İncə qeyd edib ki, ona qarşı qarayaxma kampaniyası başladılıb. Xatırladaq ki, Məhərrəm İncəyə aid olması iddia edilən qeyri-etik videolar, o cümlədən, 5 milyon dollarlıq birdəfəlik gəlir əldə etməsi haqqında məlumatlar yayılmışdı.**

Siyasətçi bütün bunların FETÖ tərəfindən provokasiya olduğunu bildirərək, dövləti bu məsələlər ilə bağlı lazımi araşdırmalar aparmağa çağırıb: "5 dəfə deputat olmuşam, prezidentliyə namizəd olmuşam, partiya qurmuşam, 40 ildən artıqdır ki, mübarizə aparıram. Səhvə səhv, doğruya doğru dedim. 40 ildə haqsızlıq etdiyim insanlar ola bilər. Amma son 45 gündə gördüklərimi 45 ildə görməmişəm. Hər gün böhtan atılır. Namizədliyimi geri götürürəm və bunu məmləkət üçün edirəm. Həm də ona görə edirəm ki, sabah heç bəhanə gətirməsin".

Prezident Rəcəb Tayyib Ərdoğan da Məhərrəm İncənin namizədliyini geri götürməsinə münasibət bildirib. Ərdoğan Məhərrəm İncənin bu qərarından təəssüfləndiyini bildirib: "Niyə çəkildiyi anlamaq mümkün deyil. Düzü təəssüfləndim, kaş bu mübarizənin sonuna qədər belə davam edərdi. Nə baş verib, niyə namizədliyini geri götürüb, bilmirəm".

Bununla da Türkiyədə 14 mayda keçiriləcək prezident seçkilərində namizədlərin sayı 3-ə düşüb. "Metropoll" araşdırma mərkəzi İncəyə səs vermək niyyətində olan seçicilərin hansı namizədlərə yönələ biləcəyi ilə bağlı rəy sorğusunun nəticələrini açıqlayıb. Prezident seçkilərində İncəyə səs verəcəyini deyən respondentlərin 49 faizi Kamal Kılıçdaroğluna, 22 faizi isə Rəcəb Tayyib Ərdoğana səs verə biləcəyini söyləyib. 21 faiz respondent isə səsverməyə getməyəcəyini açıqlayıb.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə açıqlamasında bildirib ki, Məhərrəm İncənin namizədliyi əslində müxalifətin səslərinin bölünməsinə xidmət edirdi və bu baxımdan daha çox "Cümhur İttifaqı"nın xeyrinə işləyirdi. Buna görə siyasi şərhçilər İncənin namizədliyinin Ərdoğanın qalib gəlmə ehtimalını artıra biləcəyini vurğulayırdı:** "Son sorğular göstərir ki, İncənin orta səs nisbəti 5 faiz civarındadır. Türkiyənin son iyirmi ildə iqtidarda olan altmış doqquz yaşlı lideri, AKP-nin qurucusu və rəhbəri Ərdoğanın əsas rəqibi bu ölkənin ən qocaman partiyasının (CHP) başçısı Kamal Kılıcdaroğludur. Bu iki rəqib siyasətçinin son rəy sorğularına görə, 14 mayda qələbə qazanmaq şansları, demək olar ki, bərabərdir. Hər kəs bunun fərqindədir ki, builki seçkilərdə məhz iki namizədin arasında birincilik uğrunda sərt və barışmaz rəqabət olacaq. Türkiyədə digər iki prezidentliyə namizədin Məhərrəm İncə və Sinan Oğanın şansları o qədər də yüksək sayılmırdı. İndi təbii ki, İncənin səsləri uğrunda mübarizə gedəcək. Amma İncənin elektoratının "Millət İttifaqı" tərəfindən götürüləcəyi şübhə doğurmur".

**İsmayıl Qocayev**

# Abituriyentlər kifayət qədər stress yaşayırlar

## Valideynlərin də "Sən yüksək bal yığmalısan" kimi şərtlər qoyması onları mənəvi olaraq daha çox sıxır

**Dərs ilinin sonuna doğru məktəblilərin imtahan stressi başlayır. Bu stress isə imtahan nəticələri ilə bağlı narahatlıqdan daha çox, valideynlərin "üzünü ağ etmək"lə bağlıdır. Övladı buraxılış siniflərində oxuyan valideynlərin yüksək bal gözləntisi istər-istəməz uşaqlarda həyəcan və qorxu yaradır.**



Psixoloq: "Yanlış addımdır. Bu kimi reaksiyalar bəzi hallarda iradəsi zəif, motivasiyası aşağı, özünə qapalı uşaqların depressiyaya düşməsinə, intihara əl atmasına da gətirib çıxarır"

Ata-analar uşaqlarının beyninə "mütləq yüksək bal toplamalısan" fikrini elə yeridiblər ki, imtahanda zəif nəticə göstərən uşaqlar evə qayıtmağa qorxur.

Ötən illər ərzində neçə-neçə məktəblinin məhz yüksək bal yığa bilmədiyi üçün özünə qəsd etməsinin şahidi olmuşuq axı.

Valideynlərin övladlarından daha çox gözləntilərinin olması, uşaqlarını hədələmələri, imtahanın abı-havası, uğursuz olandan sonrakı həyatları abituriyentlərin psixologiyasına güclü təsir göstərir. Nəticə uğursuz olanda da onlara pis təsir edir. Mütəxəssislərin fikrincə, imtahana hazırlaşan uşaqlara ailələri tərəfindən basqı olmamalıdır, əksinə hər kəs onlara dəstək durmalı, ürək-dirək verməlidir.

Ekspert rəylərinə keçmədən öncə zəif nəticə göstərdiyi üçün qızının ali təhsil arzusunu yarımçıq qoymaq istəyən valideynin sosial şəbəkədəki paylaşımını qeyd edirik.

İki ildir övladını repetitor yanına qoyduğunu qeyd edən bir valideyn 9-cu sinif şagirdi olan qızının imtahan nəticəsindən narazıdır: "Elə olur pula görə başqasının yerinə növbəyə gedirəm ki, təki əlavə pul qazanım, uşağın hazırlıq ödənişlərini vaxtlı-vaxtında verim. Yoldaşım da eynən mənim kimi. Düz iki ildir ikimiz də dayanmadan uşağın hazırlıqları üçün çalışırıq. O isə buraxılış imtahanında cəmi 235 bal yığıb. Bu qədər vaxtda hazırlığa getməsinə rəğmən belə zəif nəticə toplaması bizi çox məyus etdi. Dedim belədirsə, 10-cu və 11-ci sinifləri oxuma. Bu bal ilə də kollecə düşürsən. Sənədlərini məktəbdən götürüb kollecə verəcəm. Qızım isə ağlayır ki, universitetdə oxumaq istəyirəm. Deyirəm axı bu qədər hazırlığa getməyin qabağında bu balı yığmısan, 11-ci sinif lap çətin olur".

Qızının imtahan nəticələrindən yüksək bal gözlədiyini iddia edən ana bu qədər vaxta hazırlığa pul tökdükləri üçün çox peşman olduğunu qeyd edib: "Elə pisəm ki, həm öz əziyyətimə, həm də yoldaşımın əziyyətinə yanıram. Düzdü, borcumuzdu, amma uşağın da borcu oxumaq deyil ki? Biz yemədik içmədik, gəzmədik-geyinmədik ki, buna hazırlığa pul ödəyək".

**Sosioloq Zəminə Səfərova da hesab edir ki, valideynlər imtahana hazırlaşan uşaqlara çox təzyiq edir.** Uşaqlara tez-tez eşitdirirlər ki, "mənnə qədər pul tökmüşəm, səni məşğələlərə göndərmişəm. Görək, imtahanlardan necə keçəcəksən". Bu ifadə o qədər işlədilir ki, sonda övlad fikirləşir ki, bu qədər xərc çəkilib, imtahandan kəsilsəm, böyük bir faciə baş verəcək. Yaxşı olar ki, yaranmış bu qorxu yerinə valideyn sevgi hissi cücərtsin. Övlad da ata-ana sevgisini hiss etsin. Əks halda imtahandan kəsilən, yaxud da yüksək bal toplaya bilməyən şagirdlər psixoloji travma alır. Valideynlər ilk olaraq övladlarının istəyini nəzərə almalı, onun fikrinə hörmətlə yanaşmalıdır. Atalar sözündə deyildiyi kimi, "nə tökərsən aşına, o da çıxar qaşığına". Yəni uşaqla da necə davranacaqsansa, elə də qarşılığını görəcəksən. Ona görə də valideyndən çox şey asılıdır ki, övladına düzgün tərbiyə və yol göstərsin, istiqamətləndirsin. Valideyn övladına sevgi, güvən, inam vermirsə, övlad tədricən ailədən və evdən uzaqlaşacaq. Valideyn övladının dostu olmalıdır. Belə olanda övlad ailədə özünü mühüm biri kimi hiss edəcək".

**Psixoloq Orxan Oruc isə "Şərq"ə açıqlamasında deyib ki, valideynlərin övladlarına daimi olaraq hədə-qorxu gəlməsi, "Sən yüksək bal yığmalısan" kimi şərtlər qoyulması onları mənəvi olaraq sıxır:** "Uşaqdan potensialından artıq hədəfə çatmağı tələb etmək istər-istəməz onlarda müəyyən stress amillərinin çoxalmasına səbəb olur. Onsuz da abituriyentlər kifayət qədər stress altında yaşayırlar. Bir tərəfdən də valideynlərin basqısı onların bu stressini daha da çoxaldır. Bəlkə də imtahan vaxtı abituriyent özünü bir o qədər də həyəcanlandırmayacaqdı, o, stressi bu qədər güclü keçirtməyəcəkdi, amma valideynin hər dəfə övladının imtahan verəcəyinə görə narahat olması və bu narahatlığın uşağa göstərilməsi, bəzən bunun hansısa bir tələb formasında uşağın qarşısına qoyulması uşaqda həyəcanı çoxaldır. Normal şəraitdə imtahanlara hazırlaşan abituriyent yaxşı nəticə göstərəcəkdisə, həyəcan səbəbilə bəzi şeyləri unutmağa başlayır, stressə düşür. Bu imtahan hazırlığı prosesləri̇nə də öz mənfi təsirini göstərir. Hələ 9-cu sinifdə oxuyan şagirdin tez-tez başına vurmaq ki, "Sən imtahanda daha yüksək bal toplamalısan. Biz sənin üçün nə qədər pul tökürük" - çox yanlış addımdır. Bu kimi reaksiyalar uşağın çalışqanlığını artırmır, əksinə, həyəcanını artırır və nəticədə imtahanların nəticəsinin aşağı düşməsinə səbəb olur. Hətta bəzi hallarda iradəsi zəif, motivasiyası aşağı, özünə qapalı uşaqların depressiyaya düşməsinə, intihara əl atmasına da gətirib çıxarır. Buna görə valideynlər diqqətli olmalıdırlar".

**Şəymən**

# "Ancaq pul haqqında düşünürlər"

## Çingiz Abdullayev: "Maşın ustaları ilə həkimlərə inam yoxdur"



**"İndiki dövrdə iki peşə sahibinə inam yoxdur. Biri həkimlərdir, biri maşın ustaları. Əvvəllər belə deyildi, insanlarda həkimlərə inam var idi. Bizim vaxtımızda getdiyimiz yerdə vicdansız adamlar olsa da, vicdanlı, əxlaqlı insanlara da rast gəlmək olurdu. Amma indi hamısı vicdansızdırlar. Ancaq pul haqqında düşünürlər. Gələn pasiyentdən necə pul qoparmaq barədə düşünürlər".**

Bu barədə xalq yazıçısı Çingiz Abdullayev bildirib.

"Həkimə gedirsən min xəstəlik tapır. Bir dəfə sürücümü xəstəxanaya apardılar. Həkim dedi apendistin var. Yaxşı ki, yoldaşım xaricdən gəlmişdi, dedi ki, yoxlamışam heç nə yoxdur, tez çıx qaç oradan. Səhər sürücüm ultrasəs müayinəsinə getdi və məlum oldu ki, heç nəyi yoxdur, səhv diaqnoz qoyulub",- deyə yazıçı bildirib.

# Laçın-Xankəndi yolunda

## Qarabağın erməni sakinləri maneəsiz keçirlər

**Azərbaycanın Dövlət Sərhəd Xidmətinin bölmələrinin Laçın-Xankəndi yolunun başlanğıcında qurduğu sərhəd-buraxılış məntəqəsi vasitəsilə erməni əsilli şəxslər heç bir maneə olmadan istifadə edirlər.**



"Report"un əldə etdiyi videodan da göründüyü kimi, sərhəd-buraxılış məntəqəsində Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli şəxslərin sənədləri yoxlanılır və onların rahat gediş-gəlişi təmin olunur.

*Qeyd edək ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub.*



# Azərbaycan yeni orbital mövqe alacaq

## Yaxın illərdə peyklərimizin sayı artacaq

**"Türksat" şirkəti bizdən onların tutumlarını xaricdə satmağı xahiş edir". Bunu "Azərkosmos" İdarə Heyətinin sədri Saməddin Əsədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bildirib.**



"Üç peykimizin investisiya dəyəri 700 milyon manatdır"

Qurum rəhbəri qeyd edib ki, fəaliyyətə başlayanda əsasən xarici bazara kökləniblər: "Düşünürdük ki, daxili bazarda peyk xidmətlərinə elə də tələbat olmaya bilər. Türkiyənin "Türksat" şirkəti belə bizdən xahiş edir ki, onların tutumlarını xaricdə sataq. Çünki onlar ancaq öz ölkələrində sata bilirlər, lakin Azərbaycanın 42 ölkədə 182 müştərisi var. Onların əksəriyyəti Şərqi Avropa, Mərkəzi Asiya və Afrika dövlətləridir".

**"Gəlirlərimizin 90 faizi xarici bazardan formalaşır"**

Saməddin Əsədov qeyd edib ki, bizim əldə etdiyimiz gəlirlərin 90 faizi xarici bazardan formalaşır: "Ötən 10 il ərzində yarım milyard manat gəlir əldə etmişik. Bu o deməkdir ki, 500 milyon manatdan çox gəlirlərimizin 90 faizi dollar və avro ilə olub".

"Azərkosmos" İdarə Heyətinin sədri Saməddin Əsədov bildirib ki, hazırda orbitdə olan 3 peykimiz var: "Bildiyiniz kimi, bu yaxınlarda "Azersky" peyki öz fəaliyyətini başa vurdu. Peyk öz missiyasını başa vursa da, müşahidə peyki kimi qalmaqdadır. Yaxın illərdə peyklərimizin sayı artacaq".

S.Əsədov deyib ki, Azərbaycanda peyklərin istehsalı infrastrukturunu formalaşdırmaq istəyirik: "Azərbaycana kosmik texnologiyaların gətirilməsi və yeni texnologiyaların formalaşdırılması böyük əhəmiyyət kəsb edir. Ölkəmizin 2030-cu ilə qədər kosmik baxışını işləyib hazırlamışıq. Yaxın müddətdə rəhbərliyə təqdim olunacaq. Ölkəmizin kosmik sahədə davamlı inkişafı üçün ölkəmizdə peyklərin istehsalı və testi kimi infrastruktur formalaşdırmaq istəyirik. Çünki bizim yerli mütəxəssislərimiz peyklərin idarə edilməsi ilə məşğuldurlar və öz bilik, bacarıqlarını yeni texnologiyalarda sınamaq istəyirlər".

"Azərkosmos" İdarə Heyətinin sədri vurğulayıb ki, bu ilin sonuna Azərbaycan yeni orbital mövqe alacaq: "İlin sonuna kimi 46-cı orbital mövqeyi alacağıq. Biz daima bazarı izləyirik və testirik ki, orbital mövqeyimiz 13-23 olsun".

Saməddin Əsədov bildirib ki, üç peykimizin investisiya dəyəri 700 milyon manatdır: "Bu investisiyanın əksər hissəsini beynəlxalq banklardan cəlb etmişik. Bunun 15 faizini hökumətimiz ödəyib. Hazırda biz o kreditləri qaytarırıq".

**İsmayıl**

# Qiymətlər bahadır deyə...

## Bazarlara dana əti adı ilə camış əti çıxarılır

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən mənşəyi məlum olmayan 29 kq ət aşkarlanıb. Nəzarət tədbirləri çərçivəsində Agentliyin Qarabağ regional bölməsinin əməkdaşları tərəfindən aparılmış reyd zamanı Bərdə rayonu, Güloğlular kəndində fiziki şəxs Quliyev İxtiyar İlham oğluna məxsus ət satışı mağazasına baxış keçirilib.**



*"Azərbaycanda ət kəsimi ilə bağlı böyük problemlər var. Bazar iqtisadiyyatı olduğuna görə bu sahə ilə məşğul olan "işbazlar"a qarşı mübarizə aparmaq da mümkün deyil"*

Yoxlama zamanı mağazada baytarlıq (baytarlıq-sanitariya) ekspertizasından keçirilməyən, kəskin qoxuya malik, orqanoleptik göstəricilərinə görə texniki normativ hüquqi aktların tələblərinə uyğun olmayan 29 kq ət aşkarlanıb. Həmçinin aparılan araşdırmalar zamanı sahibkarın istehlakçıları aldadaraq, camış ətinin dana əti adı altında satışa çıxardığı müəyyən edilib. Sınaqların aparılması məqsədilə nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub. Eyni zamanda istehlaka yararsız ət saxlanca qoyularaq dövriyyədən çıxarılıb. Araşdırmalar davam etdirilir.

**Qida texnoloqu Ağa Salamov isə ”Şərq”ə açıqlamasında Azərbaycanda keyfiyyətsiz ət probleminin uzun illərdir aktual olduğunu deyib. Onun sözlərinə görə, ölkə ərazisində kifayət qədər keyfiyyətsiz ət istehlak olunur. Əvvəla, camış ətinin dana əti adı altında satışa çıxarılmasına münasibət bildirən ekspert deyib ki, camış əti insan orqanizmi üçün zərərli qida hesab olunmur:** ”Düzdür, qırmızı ət məhsulları arasında ən keyfiyyətlisi quzu ətidir. Dana əti isə dietik baxımdan daha faydalıdır. Bu səbəbdən şəkərli diabet və xolesterindən əziyyət çəkən insanlara mal əti yeməyi məsləhət görürlər. Amma camış əti də faydalarında görə quzu və ya dana ətindən geri qalmır. Mal ətinin malik olduğu bütün qida parametrlərini özündə cəmləşdirir. Hətta yağ toxumalarına daha az rast gəlindiyi üçün camış əti dana ətindən daha dietikdir. Rəngi digər ət məhsullarına nisbətən daha tünddür və gec bişir. Bu ət növü qiymətli zülallar və asan mənimsənilən dəmir komponentləri ilə (transferrin və ferritin) zəngin olduğundan dad-tamına görə mal ətindən bir qədər fərqlənir. Toyuq əti ilə müqayisədə isə camış əti daha zəngin zülal tərkibinə malikdir. Hətta daha ucuza başa gəldiyi üçün restoranlarda qiyməli ətdən bişən yeməklərin əksəriyyətində camış ətindən istifadə olunur. Sadəcə bərk olduğu üçün tikə ət yeməklərində istifadə geniş yayılmayıb. Burada əsas problem camış ətinin satılması yox, onun dana əti adı ilə satışa çıxarılıb istehlakçıların aldadılmasıdır: ”İnsanlar camış ətinə bir o qədər maraq göstərmədiyi üçün onu dana əti adı ilə satmağa çalışırlar. Çünki bizim ölkəmizdə camışın əti yox, ağartı məhsulları daha çox sevilir. Hətta deyərdim ki, camış qatığının və qaymağının qida dəyəri inək südündən hazırlanan ağartı məhsullarından daha yüksəkdir, həm də dadlıdır”.

Normativ hüquqi aktların tələblərinə uyğun olmayan 29 kq ət aşkarlanan ət məhsullarına gəldikdə isə A.Salamov deyib ki, həmin ət məhsulları kəsim və daşınma zamanı mikrobioloji çirklənməyə məruz qaldığı üçün istifadəyə yararsız hesab olunur: ”Yaxud da saxlanma şəraiti standartlara uyğun olmadığı üçün qoxu yaranır. Antisanitar şəraitdə kəsilən ət məhsulları mikrobioloji çirklənməyə məruz qaldığı təqdirdə xüsusən immun sistemi zəif olan insanların orqanizmində birbaşa fəsadlar yaradır və zəhərlənmələr qaçılmaz olur. Ət məhsullarının saatlarla açıq havada qalaraq mikrobioloji təsirlərə məruz qaldığını vurğulayan mütəxəssis deyir ki, 10 saatlarla açıq qalan ət qəssabların dediyi kimi, özünü tutmur, əksinə, əti dincəltmək, ölüm sərtliyindən çıxartmaq üçün soyuducuya qoymaq lazımdır. Qəssabların isə soyuducuları həmişə boş olur. Əsasən isti havalarda mikrobioloji çirklənmə daha çox olur, ət məhsulu yararsız hala düşür və zəhərlənmə baş verir.

Ümumiyyətlə, Azərbaycanda ət kəsimi ilə bağlı böyük problemlər var. Bazar iqtisadiyyatı olduğuna görə bu sahə ilə məşğul olan ”işbazlar”a qarşı mübarizə aparmaq da mümkün deyil. Hesab edirəm ki, bu məsələ ilə bağlı qanunvericilikdə xüsusi maddələr olmalıdır. Bu işlə məşğul olan insanların sahibkarlıq hüququ əlindən alınmalı və ciddi cəzalar tətbiq olunmalıdır. Qanunlar sərtləşmədiyi müddətdə AQTA-nın keçirdiyi yoxlamalar və cərimələr heç bir fayda verməyəcək”.

**Şəymən Bayramova**

**Bakıda 68 yaşlı ana 14 yaşlı qızından imtina edib. Bu barədə Azərbaycan Uşaq Birliyinin sədri Kəmalə Ağazadə sosial şəbəkədə məlumat verib. Birlik sədri bildirib ki, qız qadın tərəfindən qeyri-rəsmi övladlığa götürülüb: ”Qadın 68 yaşındadır. Bildirir ki, qızı 14 yaşındadır.**



# Tələblər sərtləşdirilməlidir

## Belə olarsa kimsə uşaqların taleyi ilə oynamağa cəsarət etməz

Övladlığa götürülmə rəsmən təsdiqlənməyib. Bu günə qədər uşağa hələ də vəsiqə almayıb. Məsələ ilə bağlı ananı Sosial Xidmətlər Agentliyinə istiqamətləndirmişik”. Lakin problem həllini tapmadığından növbəti dəfə açıqlama verən K.Ağazadə qeyd etdi ki, 14 yaşlı qızla bağlı bir neçə dəfə Sosial Xidmətlər Agentliyinə müraciət edildiyi məlum olub. Amma Agentlik problemi həll etməyib. Məsələ Daxili İşlər Nazirliyinin nəzarətindədir. Problemin həllini tapmamasını isə K.Ağazadə qurumlar arasında koordinasiyanın lazımı şəkildə olmamasında görür. Öz növbəsində Sosial Xidmətlər Agentliyi də məsələyə münasibət bildirib. Agentliyin mətbuat katibi Murad Həşimov sosial şəbəkə üzərindən açıqlama yayaraq bildirib ki, sözügedən mövzularda Agentliyə daha öncə müraciət daxil olmayıb: ”Ancaq hər iki məsələ diqqətimizdədir. Qanunvericiliyə uyğun lazımi addım atılacaq”.

**Yaranmış vəziyyətlə bağlı ”Şərq”ə danışan ”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova qeyd etdi ki, oxşar halla qarşılaşıb:**

**Mehriban Zeynalova: "Uşaq oyuncaq deyil, bu gün kefin yaxşıdır, uşaq - övlad istəyirsən, sabah kefin pozulacaq, maddi imkanların azalacaq, başqa istəklərin ortaya çıxacaq və dünən övladlığa götürdüyün uşaqdan imtina edəcəksən..."**

- Belə hal bizim təcrübədə də olub. Adətən, ya xanım xəstə olur və qohumları əmlakın həmin uşağa keçməməsi üçün vəziyyəti bu hala çatdırır. İkincisi, uşağın davranışı onların istədiyi kimi olmadıqda imtina edirlər. Belə hallarda uşağın maraqları təmin edilməlidir. Adətən öz bioloji övladlarında bu kimi hallara tolerant yanaşan insanlar övladlığa götürdüklərinin cüzi davranış dəyişiklikliyinə dözümlülük nümayiş etdirir. Belə hallar üçün övladlığa götürənin məsuliyyət və öhdəliyi müəyyən edilməlidir. Çünki uşağı müəyyən yaş dövründən sonra atmaq ona ciddi travma yaşatmaqdır. Digər hal, məncə, belə ailələrdən kompensasiya almaq tələbi olar ki, götürülən öhdəlik yerinə yetirilməyibsə, uşağın sonrakı taleyi ilə bağlı addımlar atılmayıbsa, ödəniş edilsin. İcra hakimiyyətlərinin qəyyumluq şöbələri vəziyyəti qiymətləndirməlidir. Lazım olarsa, uşağa psixoloji yardımlar və hüquqi yardımlar göstərilsin. O cümlədən ailə psixoloqu təyin edilsin. Vəziyyət idarə edilməz halda olarsa, uşaq dərhal müəssisəyə yerləşdirilməlidir. Hesab edirəm ki, övladlığa götürən tərəfin qarşısına hətta aliment tələbi qoymaq da mümkündür. Tələblər sərtləşdirilməlidir ki, kimsə uşaqların taleyi ilə oynamağa cəsarət etməsin. Uşaq oyuncaq deyil, bu gün kefin yaxşıdır, uşaq - övlad istəyirsən, sabah kefin pozulacaq, maddi imkanların azalacaq, başqa istəklərin ortaya çıxacaq və dünən övladlığa götürdüyün uşaqdan imtina edəcəksən. Ailələr bu məsələyə ciddi yanaşmalı, hökumət tərəfindən də tələblər sərtləşdirilməlidir.

**Məlahət Rzayeva**



# Ukraynanın müharibədən məğlub çıxması qeyri-mümkündür

## Belə hal baş versə, bu, təkcə Ukraynanın deyil, bütün dünya nizamının dəyişməsi demək olacaq

**Ukraynanın gözlənilən əks-hücumu həyata keçirməsi üçün daha çox vaxta ehtiyacı var. Bunu Ukrayna Prezidenti Vladimir Zelenski deyib. O, ordunun hələ də Qərbin söz verdiyi hərbi yardımlarıa ehtiyac duyduğunu vurğulayıb: ”Hazırda əlimizdə olanlarla hücuma keçə və uğur qazana bilərik.**

Lakin biz çox insan itirərik. Düşünürəm ki, bu, qəbuledilməzdir. Ona görə də bizim gözləməyə ehtiyacımız var. Bizim hələ də bir qədər vaxta ehtiyacımız var”. Zelenski Ukraynanın döyüş briqadalarının əks-hücuma hazır olduğunu, lakin ordunun hələ də zirehli texnika da daxil olmaqla bir sıra vasitələrə ehtiyac duyduğunu qeyd edib. Zelenski Rusiyaya ərazi güzəştinin mümkün olmadığını da əlavə edib: ”Hər kəsin bir fikri ola bilər, lakin onlar Ukraynaya öz ərazilərini təslim etməsi üçün təzyiq göstərə bilməzlər. Nə üçün dünyanın hər hansı bir ölkəsi öz ərazisini Putinə verməlidir?”. Ukrayna Prezident Ofisi rəhbərinin müşaviri Mixail Podolyak deyib ki, Ukraynaya silah tədarükünün dayandırılması heç bir halda genişmiqyaslı müharibəni dayandırmayacaq: ”Bir daha deyirəm ki, Ukraynaya silah tədarükünü dayandırmaqla müharibəni dərhal dayandırmaq qətiyyən mümkün deyil. Rusiyanın işğalçı qoşunlarının xarici suveren ərazidən dərhal çıxarılması yeganə həll yoludur”. Onun sözlərinə görə, Ukraynaya silah tədarükünün dayandırılması müharibənin miqyasının genişlənməsinə, cinayətlərin artmasına, mülki əhalinin tamamilə məhv edilməsinə səbəb ola bilər. Kreml sözçüsü Dmitri Peskov isə bildirib ki, Ukraynanın hərbsizləşdirilməsi ”xüsusi hərbi əməliyyat”ın ən vacib hədəflərindən biridir və Rusiya Ukraynanın hərbi maşınını darmadağın edə bilib. O, ”hərbi əməliyyatı” çox çətin adlandırıb, lakin müəyyən hədəflərə bir ildə nail olunduğunu bildirib. Peskovun sözlərinə görə, Rusiyanın yüksəkdəqiqlikli silahları ilə Ukraynanın xeyli hərbi istehsal sənayesi və anbarları məhv edilib: ”Bu, davam etdiriləcək”. Britaniya Müdafiə Nazirliyinin məlumatına görə, Rusiya Müdafiə Nazirliyi Ukraynadakı hərbi əməliyyatlarda iştirak etmək üçün rusiyalı əsirlərin cəlb edilməsi sxemini gücləndirib. Məlumata görə, təkcə 2023-cü ilin aprelində 10 minə qədər məhkum Rusiya ordusuna cəlb edilib. 2022-ci ilin yayından etibarən məhbuslar ”Vaqner” qrupunun Ukraynadakı irimiqyaslı əməliyyatlarına cəlb olunanların əsas mənbəyi olub.

**Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov ”Şərq”ə bildirib ki, müşahidələr və Rusiya-Ukrayna cəbhəsindən gələn son məlumatlar onu göstərir ki, Rusiya həm hərbi, həm də iqtisadi resurslar baxımından tükənmək üzrədir:** ”Artıq rus hərbi və siyasi elitasında ciddi parçalanmalar və qarşıdurmaların mövcudluğunu da gizlədə bilmirlər. Təbii ki, müttəfiqlərinin ciddi dəstəyinə baxmayaraq, Ukraynanın da yaxşı vəziyyətdə olmasını iddia etmək absurd olar. Başqa cür desək, hər iki tərəfin bu mənasız müharibədən həddindən artıq tükənmiş halda çıxacağını indidən söyləmək olar. Amma başlıca uduzan tərəfin Rusiya olacağı, çox böyük ehtimalla bu müharibənin sonunda ərazilərini və dövlət kimi siyasi nüfuzunu tamamilə itirəcəyini əminliklə söyləmək mümkündür. Çünki hazırkı mərhələdə də göründüyü kimi Rusiyanın qəbul etdiyi bütün qərarların kökündə hirs, hegemonluq, emosiya və sonadək diktə etmək istəkləri dayanır”.

*“Son məlumatlar onu göstərir ki, Rusiya həm hərbi, həm də iqtisadi resurslar baxımından tükənmək üzrədir”*

**H.Rüstəmov qeyd edib ki, rus tərəfinin rasional qərar qəbul edə bilməməsi səbəbindən vəziyyəti get-gedə pisləşməkdədir:** ”Ukraynanın toplum kimi bütövlüyü və ərazilərini işğal etmiş düşmənə qarşı amansız mübarizə apara bilməsi kimi mühüm üstünlükləri var. Şəhərləri dağılsa da, ciddi itkiləri olsa da, Ukraynanın bu müharibədən məğlub çıxması qeyri-mümkündür. Belə hal baş versə, bu, təkcə Ukraynanın deyil, bütün dünya nizamının dəyişməsi demək olacaq. Buna isə təkcə nüvə başlıqlarına güvənən və hamıya qarşı vuruşmaq istəyən Rusiyadan fərqli olaraq, dünyanın həm iqtisadi, həm siyasi və həm də hərbi baxımından qüdrətli ölkələri olan ABŞ və NATO ölkələri heç vaxt razı ola bilməzlər. Ona görə də Rusiyanın məğlubiyyəti aydındır. Müharibənin konkret hansı vaxtda və hansı formada bitməsi isə məncə çox keçmədən bəlli olacaq”.

**İsmayıl Qocayev**

# İctimai rəy Rusiyanın əleyhinədir

## Artıq Gürcüstanda vəziyyət 2008-ci ildəki kimi sadə deyil

**Rusiya Prezidenti Vladimir Putin mayın 15-dən Gürcüstan vətəndaşları üçün viza rejiminin ləğvi haqqında fərman imzalayıb. Digər fərmanla o, 2019-cu ildən qüvvədə olan Rusiya aviaşirkətlərinin uçuşlarına və Gürcüstana turların satışına qadağa qoyulmasını ləğv edib. Gürcüstan rəhbəri Salome Zurabişvili bəyan edib ki, Rusiyanın Gürcüstan vətəndaşları üçün viza rejiminin ləğvi və respublikaya hava yolu ilə səyahətə qoyulan qadağanın götürülməsi barədə qərarı Ukraynadakı vəziyyətlə əlaqədar qəbuledilməzdir.**



*"Gürcüstanı Rusiyanın orbitinə qaytarmaq üçün hakimiyyət repressiyalara əl atmalıdır. Bu isə mümkün görünmür"*

O, bu qərarı Rusiyanın növbəti təxribatı adlandırıb. Onun sözlərinə görə, Rusiya tərəfindən Gürcüstan vətəndaşları üçün viza rejiminin ləğvi respublikanın siyasi qüvvələri arasında gərginliyə səbəb olacaq. Gürcüstan xarici işlər naziri İlya Darçiaşvili deyib ki, Tbilisi hökuməti Rusiyanın Gürcüstanla viza rejiminin ləğv etməsi qərarını alqışlayır: ”Qərar vətəndaşlarımızın gündəlik həyatını asanlaşdıracaq”. Hakim ”Gürcü arzusu” Partiyasının sədri İrakli Kobaxidze deyib ki, Gürcüstan hökuməti Rusiyadan ziyarətçi axınının artacağı təqdirdə ruslara qarşı ksenofobiyanın qızışdırılmasına imkan verməyəcək: ”İndi turistik mövsum yaxınlaşır və onlar yenidən cəmiyyətə panika yaratmağa çalışırlar ki, guya, xeyli etnik ruslar gəlir və bu, ölkənin süqutuna səbəb ola bilər. Əlbəttə, biz ölkədə ksenofobiyanın qızışdırılmasına imkan verməyəcəyik. Gürcüstanda ksenofobiyaya yer yoxdur”. Məlum qərardan sonra Tbilisidə Rusiya ilə birbaşa aviaəlaqələrin bərpası əleyhinə aksiya keçirilib. Xarici İşlər Nazirliyinin binası qarşısına toplaşan etirazçılar müxtəlif plakatlar qaldırıblar. Onlardan birində ”Rusiya işğalçıdır” yazısının olması diqqət çəkib.

ABŞ Rusiya ilə uçuşları bərpa edəcəyi təqdirdə Gürcüstana sanksiyalar barədə xəbərdarlıq edib. Dövlət Departamentindən bildirilib ki, əgər Rusiya ilə Gürcüstan arasında birbaşa uçuşlar bərpa olunarsa, bu, Gürcüstan aviaşirkətlərinə qarşı sanksiyaların mümkünlüyü ilə bağlı narahatlığımızı artıracaq”. Məlumatda Rusiyanın Gürcüstanın 20 faiz ərazisini işğal etdiyi də xatırladılıb: ”Putinin öz qoşunlarını Gürcüstanın işğal olunmuş ərazisindən çıxarması gürcü xalqı üçün birbaşa uçuşların bərpasından və ya viza rejiminin ləğvindən daha yaxşı olardı. Bütün sivil dünya Putin rejimindən yaxa qurtarmağa çalışır”.

Məlumat üçün bildirək ki, Gürcüstanla viza rejimi Rusiya hakimiyyətinin qərarı ilə 2000-ci ildə tətbiq edilib. Eyni zamanda Gürcüstan 2012-ci ildən rusiyalılar üçün vizaları ləğv edib. Gürcüstan qanunvericiliyinə görə, Rusiya vətəndaşları ölkəyə vizasız səfər edə və respublikada bir ilədək qala bilərlər. İki ölkə arasında diplomatik əlaqələr 2008-ci ildə kəsilib.

**Politoloq Azər Rəşidoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, Gürcüstanın mövcud iqtidarı Rusiyanın təsir dairəsindədir. Ekspertin sözlərinə görə, Kreml öz nəzarətində olan oliqarxları hakimiyyətə gətirməklə Tbilisini yenidən nəzarətə götürmək istədi:** ”Lakin artıq Gürcüstanda vəziyyət 2008-ci ildəki kimi sadə deyil. İctimai rəy Rusiyanın əleyhinədir. Gürcüstanı Rusiyanın orbitinə qaytarmaq üçün hakimiyyət repressiyalara əl atmalıdır. Bu isə mümkün deyil. Gürcü xalqını Rusiyanın bölgədəki hərbi mövcudluğunun artması qane etmir. Bu baxımdan, Rusiyanın təsirinin artması ilə yanaşı, Qərbin də Gürcüstana marağı artacaq. Gürcüstan bu gün Cənubi Qafqazda Qərbin yeganə dayağı və sadiq müttəfiqi olaraq qalır. Qərb Tbilisi ilə yeni müqavilələr imzalamağa çalışır. Qərb əmin olmaq istəyir ki, yaxın gələcəkdə mövcud enerji layihələri üçün heç bir təhlükə gözlənilmir. Qərb ondan narahatdır ki, gələcəkdə Azərbaycan özünün yeni layihələrini Gürcüstan vasitəsilə deyil, Rusiya üzərindən həyata keçirə bilər və bu səbəbdən Gürcüstan öz imkanlarını şaxələndirmək barədə düşünür və Moskvanı narazı salmaq istəmir. Rəy sorğuları əhalinin əksəriyyətinin Gürcüstanın Avropa və Avroatlantik inteqrasiyasını dəstəklədiyini göstərir. Odur ki, hətta Rusiyanın bölgədəki nüfuzunun artması fonunda belə, Gürcüstan hakimiyyəti ölkənin xarici siyasət vektorunun istiqamətini köklü sürətdə dəyişməyəcək. Eyni zamanda Rusiyapərəst ritorika və Qərbin qurumlarında Gürcüstanın gələcəyinə şübhə ilə yanaşma güclənə bilər. Gürcüstanın Qərb ölkələri ilə yenidən danışmaq və Rusiyanın Cənubi Qafqazda özünü necə apardığı fonunda Gürcüstana ən azı üzvlüyə nail olmaq istiqamətində ”yol xəritəsinin” verilməsini NATO-dan istəmək üçün yaxşı bir şansı var. Rusiya yalnız sözdə göstərmək istəyir ki, qazanan tərəf odur, reallıq isə fərqlidir”.

*A.Rəşidoğlunun fikrincə, Rusiyanın regionda onsuz da üç hərbi bazası var:* ”O cümlədən, Gürcüstan hökumətinin razılığı olmadan Abxaziyada və Cənubi Osetiyada. Digər bir Rusiya bazası da Ermənistan ərazisində, Gümrüdədir. Bütün hallarda Rusiya hərbçilərinin yerləşdirilməsi faktiki olaraq güc hesabına baş verib, onlar sülhü deyil, Rusiyanın geosiyasi maraqlarını təmin edir. Rusiya 2008-ci ildə mədəniyyət baxımından müttəfiqi olan pravoslav Gürcüstan ilə münasibətlərini korlayıb. Sivilizasiya müstəvisi baxımından Rusiya buranı tərk edir. Türkiyə daxil olur. Odur ki, viza diplomatiyası ruslara böyük perspektiv vəd etmir”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi



# Kosmos sahəsi kifayət qədər konservativ və risk yönümlüdür

## Bakıda hansısa fövqəladə problemlər yaranarsa, Naxçıvandan da peyklərimizi idarə etmək mümkündür

**Azərbaycan Respublikasının Kosmik Agentliyi İdarə Heyəti sədrinin "biz Rusiya sülhməramlı kontingentinin nəzarəti altında olan ərazilərdə nə baş verdiyini çox yaxşı görürük", açıqlaması informasiya-kommunikasiya texnologiyaları, eləcə də kosmik tədqiqatlar sahəsində inkişafın ölkəmizin təhlükəsizliyi və müdafiə gücünün artırılmasında necə böyük əhəmiyyət kəsb etdiyini göstərir.**

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan Milli Aerokosmik Agentliyinin alim və mütəxəssisləri ötən illər ərzində kosmik texnologiyaların tətbiqi və elmi kosmik cihazqayırma sahəsində bir sıra nailiyyətlər əldə edib və alınmış nəticələrin beynəlxalq miqyasda nümayiş etdirilməsinə nail olublar. Təsadüfi deyil ki, cənab Prezident İlham Əliyev də kosmik sənayenin inkişafına xüsusi diqqət ayırır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 avqust 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" yerin kosmosdan tədqiqi sahəsində perspektiv istiqamətləri müəyyənləşdirib, Müdafiə Sənayesi Nazirliyi və MAKA-nın texniki tərəqqisi üçün yeni imkanlar açıb. Həmin Proqramın icrası ən müasir texnologiyalara əsaslanmış istehsal fəaliyyətinin təşkili üçün yeni nailiyyətlərin qazanılmasına, ölkəmizin müdafiə qüdrətinin möhkəmlənməsində əsaslı rola malikdir. Dövrün tələbləri, ölkəmizin təkcə yerdən deyil, fəzadan da təhlükəsizliyinin tam şəkildə qorunması məqsədilə "Kosmik fəaliyyət haqqında" mövcud qanuna dəyişikliklər təklif edilir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında "Kosmik fəaliyyət haqqında" yeni qanun layihəsi müzakirəyə çıxarılıb. Qanun layihəsində Azərbaycanda kosmik fəaliyyətin prinsipləri əksini tapıb. Layihəyə əsasən, kosmik fəaliyyət aşağıdakı prinsiplər əsasında həyata keçirilir: Kosmik fəzadan sülh naminə istifadə edilməsi; Milli maraqların qorunması; Kosmik resurslardan səmərəli istifadə olunması; Milli fəaliyyətə dövlət tərəfindən nəzarət edilməsi; Kosmik fəaliyyətin və kosmik sənayenin təhlükəsizliyi, kosmik tullantıların ətraf mühitə təsirinin azaldılması. Qanun layihəsində kosmik sahədə dövlət tənzimləməsi qaydaları da müəyyən edilir. Layihəyə əsasən, Azərbaycan Respublikasında kosmik fəaliyyətin tənzimlənməsi aşağıdakı istiqamətlərdə həyata keçirilərək: - kosmik fəaliyyət üçün nəzərdə tutulan malların (işlərin, xidmətlərin), onlarla əlaqəli proseslərin və istehsal metodlarının sertifikatlaşdırılması; - kosmik obyektlərin dövlət qeydiyyatı; - orbital mövqelərin əldə edilməsi və qorunması; - kosmik fəaliyyətin tənzimlənməsinin bu Qanundan irəli gələn digər istiqamətləri. Milli kosmik operatora öz fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahıda nəzərdə tutulmuş lisenziya və icazələrin alınması tələb olunmur.

Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi Azərbaycan Respublikasından kənarda kosmik obyekt üzərində əmlak hüququnu əldə edənədək bu barədə milli kosmik operatora əvvəlcədən yazılı məlumat verməli olacaq. Qanun layihəsinə əsasən, kosmik fəaliyyət subyektlərinin Reyestrdə qeydiyyata alınmış kosmik obyektlərin idarə edilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzarət edilir. Həmin kosmik obyektlərinin idarə edilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada həyata keçirilir. - Kosmik fəzada milli fəaliyyətin əlaqələndirilməsi və həmin fəaliyyətə texniki nəzarət milli kosmik operator tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasından kənarda kosmik obyektin istehsalını sifariş etmiş Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi sifariş verdiyi andan 30 (otuz) gün müddətində bu barədə milli kosmik operatora yazılı məlumat verməlidir.

"Kosmik fəaliyyət haqqında" yeni qanun layihəsində eyni zamanda Azərbaycanda yerüstü kosmik infrastrukturun istismarına lazımi şərait yaradılması üçün onların ətrafında Torpaq Məcəlləsinə uyğun olaraq xüsusi hüquqi rejimli mühafizə zonalarının yaradılması da öz əksini tapıb. Qanun layihəsinə əsasən, yerüstü kosmik infrastruktura həmçinin aşağıdakılar aid edilir: kosmik obyektlərin yerüstü idarəetmə mərkəzləri; kosmik fəzada olan kosmik obyektlə telekommunikasiyanı təmin edən yer stansiyaları; kosmik raket kompleksləri və vasitələri, kosmik obyektlərin uçuş və eniş poliqonları və platformaları, kosmik uçuşların yerüstü idarəetmə məntəqələri; kosmik uçuşlara hazırlıq mərkəzləri; kosmik obyektin saxlanc yerləri və sınaq məntəqələri; kosmik fəaliyyət üçün zəruri olan digər yerüstü kosmik infrastruktur qurğular və vasitələr. Həmçinin Azərbaycanda kosmik obyektin üçüncü şəxslərə zərərvurma riski də açıqlanıb. Qanun layihəsində qeyd olunub ki, kosmik obyektin üçüncü şəxslərə zərərvurma riskinin sığorta və ya digər maliyyə təminatının məbləği müqavilə əsasında irəli sürülən tələblərin ödənilməsi üçün istifadə edilir. Kosmik obyektin üçüncü şəxslərə zərərvurma riski üzrə sığorta şəhadətnaməsinin şərtləri kosmik fəaliyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

### Azərbaycan Rusiya sülhməramlı kontingentinin nəzarəti altında olan ərazilərdə nə baş verdiyini yaxşı izləyir

Kosmik operatorlar və kosmik obyektlərin mülkiyyətçiləri kosmik obyektin üçüncü şəxslərə zərərvurma riski üzrə sığorta şəhadətnaməsinin şərtlərinə əməl etməlidirlər. Tərəflər arasında ayrı razılaşma nəzərdə tutulmayıbsa, kosmik obyektin üçüncü şəxslər qarşısında məsuliyyətin sığortası) kosmik obyektin mülkiyyətçisinin vəsaiti hesabına sığortalanır və ya sığorta əvəzinə maliyyə təminatı əldə olunur.

İclasda çıxış edən "Azərkosmos" - Azərbaycan Respublikasının Kosmik Agentliyi İdarə Heyətinin sədri Samədddin Əsədov bildirib ki, Azərbaycanda peyklərin idarə edilməsi üçün alternativ nöqtələr də var. O qeyd edib ki, kosmos sahəsi kifayət qədər konservativ və risk yönümlüdür. "Bakıda hansısa fövqəladə problemlər yaranarsa, Naxçıvandan da peyklərimizi idarə etmək mümkündür", - deyə o əlavə edib. S.Əsədov daha bir yeniliyi qeyd edərək bildirib ki, Azərbaycan orbitdə 46-cı dərəcə meridianda yerləşir. Bu meridiana Malayziya hökuməti tərəfindən 90-cı illərdə ərizə verilib. Yəni bu meridianı Azərbaycan Malayziya ilə bölüşür. İki ölkə arasındakı əlverişli əməkdaşlıq nəticəsində Malayziya bu resursu Azərbaycana vermək qərarına gəlib. S.Əsədov qeyd edib ki, ilin sonuna qədər Malayziya ilə bu proses sonlandırılacaq. 46-cı dərəcə tam Azərbaycanın mövqeyi olacaq. Bundan sonra biz istəsək, kosmosa 5-6 peyk ötürə biləcəyik.

S.Əsədov vurğulayıb ki, kosmik fəaliyyət Azərbaycanın milli maraqlarına xidmət etməklə yanaşı kommersiya məqsədləri daşıyır. Onun sözlərinə görə, Azərbaycanın, Gürcüstanın bütün televiziya kanalları Azərbaycan peykləri vasitəsilə ilə yayımlanır. O vurğulayıb ki, bu gün peyklərlə bağlı Azərbaycanın xaricdən heç bir asılılığı yoxdur. Azərbaycanda yerüstü kosmik infrastrukturun istismarına lazımi şərait yaradılması üçün onların ətrafında Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq xüsusi hüquqi rejimli mühafizə zonaları yaradılır. S.Əsədov qeyd edib ki, Rusiya sülhməramlı kontingentinin nəzarəti altında olan ərazilərdə nə baş verdiyini çox yaxşı izləyirlər: "Həmişə lazımi məlumatları aidiyyəti qurumlara çatdıra bilirik".

**Azərbaycan Multimedia Mərkəzinin direktoru Osman Gündüz isə "Şərq"ə açıqlamasında "Azərkosmos"la "SpaceX" şirkəti arasında əməkdaşlıq müqaviləsinin imzalanmasına toxunaraq bunun ölkəmizin təhlükəsizliyi və müşahidə imkanlarının artması üçün böyük əhəmiyyət daşıya biləcəyini vurğuladı:**

- Müqaviləyə əsasən, "Azərkosmos" və "SpaceX" şirkəti arasında şirkətin "Starlink" peyk internet xidmətinin Azərbaycanda satışı üzrə razılıq əldə olunub. Xeyli müddət olardı ki, Azərbaycan ərazisi də "Starlink" peyklərinin əhatə dairəsinə daxil olmuşdu. "Starlink" internet xidməti yetərincə baha olduğundan, güman ki, bu xidmət daha çox korporativ sektor, işğaldan azad olunan ərazilər və ənənəvi internet bağlantıların əlçatan olmadığı ərazilər üçün cəlbedici olacaq. Xatırladıram ki, müharibə şəraitində olan Ukrayna bu peyk operatorunun imkanlarından yetərincə bəhrələnmişdi. İstənilən halda, alternativ bir internet xidməti olaraq "Starlink"in ölkəmizə gəlişi yetərincə faydalıdır. Düşünmək olar ki, "Azərkosmos" bu əməkdaşlıq çərçivəsində yeni istehsal olunacaq peyklərin də "SpaceX" vasitəsilə orbitə qaldırılmasını nəzərdə tutub. Daha öncə də "Azərkosmos" rəhbərliyi belə bir əməkdaşlıq üzərində çalışdıqlarını bildirmişdi. Beləliklə də, Azərbaycanın yeni müşahidə peykinin İsrail tərəfindən istehsal olunacağını və "SpaceX" şirkəti tərəfindən orbitə qaldırılacağını gözləmək olar. Qeyd olunan müqavilənin reallaşması ilə bu ilin oktyabrında Bakıda keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə İlon Maskın da qatılacağını gözləmək olar. Gözləmək olar ki, peykimizin orbitə qaldırılması ilə bağlı "SpaceX" ilə anlaşmalar elə Konqres çərçivəsində imzalansın.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Dəyişən jurnalistikanın təməl prinsipləri deyil, kontentin özüdür"

**Texnoloji yeniliklər bir çox sahələrə təsir etdiyi kimi jurnalistikaya da bəzi yeni anlayışlar, vərdişlər gətirir. Günümüzdə yeni media mühitində çoxsaylı platformalar informasiya axınını sürətləndirir, jurnalistlər bu mühitə adaptasiya olunmaq üçün yeni trendləri öyrənir və tətbiq etməyə çalışırlar. Müasir jurnalistlər rəqəmsal məcralara üz tutduqlarından onlara rəqəmsal jurnalist və ya onlayn jurnalistlər də deyilir.**

*Ənənəvi jurnalistikadan bir çox xüsusiyyətləri ilə fərqlənən bu jurnalistlər yeni vərdişlərə, prioritetlərə, iş prinsiplərinə sahibdirlər. Bu yeni vərdişlərə, məcralara çalışan jurnalistika daha yaxından anlamaq və ümumən texnoloji inkişafın müsbət və mənfi təsirləri haqqında yeni media mütəxəssisi Səbinə İzzətli ilə həmsöhbət olduq.*

**- Onlayn jurnalistika dönəmində kontentə tələblər hansılardır?**

- Yeni media dönəmində jurnalistin istehsal etdiyi məzmunun tələblərindən bəhs etməzdən öncə araşdırmalı olduğumuz birinci məsələ kimin üçün yazdığımızı bilməyimizdir. Onlayn auditoriya qəzet, radio və televiziya auditoriyasından - oxucudan, dinləyicidən və tamaşaçıdan xeyli dərəcədə fərqlidir. İlk fərq odur ki, yeni media auditoriyası oxumur, o, nəzərdən keçirir. Onun saatlarla hansısa məqaləni detallı oxumağa vaxtı yoxdur. Ona görə auditoriyanın üz tutduğu yeni platformalarda məzmun yaradarkən hər məcranın öz dilini bilmək vacibdir. "Facebook"da məzmun paylaşımı ilə instaqram və ya tvitterdə paylaşma formatları fərqlidir. Bu rəqəmsal kanallar kontenti və onu çatdırmaq yollarını xeyli dəyişib. Bu gün "mətn" yerinə "hipermətn" kəlməsi işlədirik. Yeni oxuduğumuz material statik hərflərdən ibarət deyil, biz asanlıqla mətn daxilində keçidlər (link) verməklə həm materialı yığcam edirik, həm də oxucunu daha ətraflı məlumatlandırırıq. Ənənəvi mediada, məsələn, qəzetlərdə bunu etmək mümkün deyil. Yeni bir hadisə barədə yazan jurnalist olay haqqında ətraflı məlumatı ön tarixçədə yazmaq məcburiyyətindədir, bu da yazını yükləmiş olur, insan gözünü yorur. İnternet səhifəsində yerləşdirilən hipermətnlər sayəsində onlayn jurnalist oxucuya daha ətraflı bilgilənmək, əlaqəli informasiyalara çatım seçimi verir.

**- Texnoloji yeniliklərin onlayn jurnalistikaya faydası ilə bərabər bəzi riskləri də vardır. Bunlar barədə danışardınız.**

- "PEN America"nın baş icraçı direktoru və söz azadlığı üzrə eksperti Suzan Nosselin fikrincə, 2035-ci ilə qədər xəbər və məlumatları tamamilə sosial mediadan alan insanlar çoxluq təşkil edəcək. Artıq şahidi oluruq ki, sosial media platformaları jurnalistikaya yeni yayım formatları gətirib ki, bu da yenə birbaşa kontentə, jurnalistin istehsal etdiyi məzmuna təsir edir. Dəyişən jurnalistikanın təməl prinsipləri deyil, kontentin özüdür. Bloqçular, yutuberlər, podkastçılar operativ, dinamik və interaktiv kontent yaratmağa davam edir. Bu durumla ayaqlaşmağa çalışan jurnalistika zaman-zaman alternativ məcralara da üz tutur. Bu yeniliklər jurnalistikanın irəliləməsinə, peşə olaraq varlığını qorumasına kömək etsə də, bəzən təməl prinsiplər unudulur, incə cizgi adlandırdığımız faktlılıq arxa plana keçir və saxta kontent gündəmə gəlmiş olur. Bu vəziyyət jurnalistlərə onu işarə edir ki, yeni mediada cərəyan edən çoxsaylı informasiya axınında "birinci mən paylaşım" psixologiyasına aldanıb məlumatı yoxlamamış ötürməsin. Xüsusən də, kütləvi faciələr, təbii fəlakətlər zamanı sosial mediada şayiələr sürətlə yayılır, bəzən yoxlanmadan, olduğu kimi ana mediada yer alan bu məlumatların da sonradan heç bir əsası olmur.

**- Onlayn jurnalistikada sürətlə yayılan dezinformasiyaları doğrulamaq yollarını göstərə bilərsinizmi?**

- Jurnalist kontenti heç vaxt bu qədər manipulyasiyaya məruz qalmayıb. Sosial media alətlərindən yararlanan jurnalistlər çox vaxt təməl peşə prinsiplərini unudur və məlumatı bir neçə mənbədən yoxlamadan yayımlayır, özü də bir deyil, bir neçə məcrada, fərqli formatda, sürətlə paylaşa bilir. Müharibə, pandemiya və buna bənzər hadisələr zamanı insanların həssas olduğu və qarşılaşdığı informasiyaları araşdırmadan paylaşdığı bir dövrdür. Yanlış məlumat qurbanı olmamaq və auditoriyaya əsası olmayan xəbərlər təqdim etməmək üçün hər paylaşımdan əvvəl o informasiyaları internetdəki vasitələrin də köməyi ilə yoxlamaq mümkündür. Bunun qarşısını almaq üçün jurnalistlərə həm redaksiya daxilində öyrədici təlimlər həyata keçirilə bilər, həm də auditoriya ilə media savadlılığı mövzusunda məlumatlandırıcı materiallar paylaşıla bilər. Məsələn, TinEye, InVID kimi çoxsaylı platformalar vardır ki, foto və ya video materialların ilkin mənbəyini təyin etməyə, informasiyanın manipulyasiyaya məruz qalıb-qalmadığını anlamağa kömək olur. Azərbaycanda "Faktyoxla" platforması bu istiqamətdə çox iş görür. Xəbər saytlarında yerləşdirilən saxta xəbərlər ifşa olunur, bu xəbərlərin saxta olması qənaətinə necə gəlindiyi yolları göstərilir. Hesab edirəm ki, bu filtrasiyadan hər bir xəbər redaksiyası istifadə etməlidir.

**- Veb-texnologiyaların inkişafı onlayn jurnalistika barədə hansı perspektivləri vəd edir?**

- Hazırda dünyada ənənəvi radio stansiyaları öz formatını dəyişərək tamamən və ya qismən rəqəmsal yayıma keçiblər. Misal üçün, Norveç ilk ölkədir ki, tamamilə analoq yayımı dayandırıb, DAB (Digital Audio Broadcasting) xidmətinə keçib. 2024-cü ilin sonuna kimi İsveçrə də bu xidmətə qoşulacaq. Bütün bu trendlər onu deməyə əsas verir ki, audioyayımın dəyişimi onun formatına, üslubuna da təsirsiz ötüşmür. Eləcə də "Bitkoin", "Etereum" kimi kriptovalyutalarla məşhurlaşan "Blokçeyn" əsaslı sistemlər də jurnalistikanın gələcəyində bir sıra faydalar verə bilər. Xüsusilə, bu inkişaf edən texnologiya Kolumbiya Jurnalistika İcmalına (CJR) görə, nəticədə xəbər otaqlarına ictimai inam yaratmağa və maliyyə dayanıqlığını artırmağa kömək edə bilər.

Proqnoza gəldikdə, veteran jurnalist Riçard Prinsin sözlərinə görə, 15 ildən sonra jurnalistika problemin həllinin bir parçası olmağa daha da yaxınlaşacaq. Xəbər istehlakçıları "həll jurnalistikası" istədikləri üçün xəbərlərdə təkcə problemlər deyil, həm də həll yolları təqdim olunacaq.

"İnformasiya müharibələri" kitabın müəllifi Riçard Stengel isə daha bədbin proqnoz verir. Xəbər mediasının gələcəkdə iki ayrı qrupa xidmət edəcəyini düşünür. Onun sözlərinə görə, birinci qrupa daxil olanlar pullu abunə haqqını ödəyə bilən insanlardan ibarət olacaq, beləliklə onlar üçün hazırlanmış çoxyönlü məzmun əldə edə bilənlər olacaq. Qalan hər kəs bu imkanları olmayan media kasıbıdır. Bu qrupa daxil olanlar alqoritmlərlə daha çox insanın görməsi üçün nəzərdə tutulmuş və reklamlarla maliyyələşdirilən məzmuna məhkum olacaqlar. Keyfiyyətli kontentin əksəriyyəti ödənişli olacağından yoxsulların çoxu onlara daxil ola bilməyəcək və daha çox dezinformasiya ilə üzləşəcək.

Bu durumda belə bir sual yaranır: texnoloji inkişaf jurnalistikaya müsbət, yoxsa mənfi təsir etmiş olur? Bu sual ətrafında düşünməyə dəyər. Əminəm ki, sualın konkret cavabı yoxdur. Faydalı və zərərli təsirin arasında bir orta yolun olduğunu düşünək və çalışaq ki, qızıl ortanı tuta bilək.



**Züleyxa Ağamələyeva, BDU, Jurnalistika fakültəsi IV kurs tələbəsi**

# "İncəsənətə çağdaş və gənc baxış: *Sahib Yaqubov yaradıcılığı*



**İncəsənət hər bir şeydən öncə insanın özünün kəşf etməsi deməkdir. Özündə bu işığı görən bir kəs isə qaranlıqlar içərisində parlayaraq, ətrafı üçün sonsuz işıq mənbəyi olan bir çırağa çevrilə bilər. Əslinə qalsa, bu düşüncə həyatın təməlində dayanan əsas təzadlardan biridir. Bu işıq və qaranlığın kövrək əlaqəsini, əsas balansını qoruyan isə sənətkarlardır.**

Sənətdə mövcud olan baxışlara meydan oxuyan, yeni ideyalar təqdim etməyə çalışan gənc, amma bir o qədər də peşəkar fəaliyyəti ilə tanıdığımız avanqard rəssam Sahib Yaqubov yaradıcılığı özünü ifadə cəhdi ilə zahiri aləmi, habelə sosial sferanı fərqləndirə bilmə potensialına malik olub, innovativ səciyyə daşımaqdadır. Rəssamın yaradıcılıq fəaliyyəti, bədii üslubu çox orijinaldır, onu başqalarından fərqləndirən meyarları, "özünəxas siması" vardır. Belə bir üslubun özəyində dayanan istedadı isə inkar etmək günah olar Yenilikçi ideyalarını kətan üzərində sınaqdan keçirən sənətkar üçün bütün ideologiyalar sosial fəaliyyətin həyata keçirə biləcəyi simvolik formalardır. O, kosmosu, enerjini ustalıqla motivə çevirə bilir, kətanının üzərində həkk etdiyi hər bir fiqur isə durğunluqdan dinamizmə keçidin mükəmməl əksini özündə simvolizə edir. Sahib Yaqubovun yaradıcılıq prosesində utopik impuls hər zaman sənət və duyğularda özünü qabarıq şəkildə büruzə verir. Axı incəsənət mütləq ruhun təcəssümüdür Rəssam da məhz buna görə yaradıcı ruhunun fövqündən bəhrələnərək, fəaliyyətində gündən-günə püxtələşir.

Biz, S.Yaqubovun yaradıcılığında utopik və avanqard nüanslarla yanaşı, olduqca modernist yanaşmanın da bədii təzahürünü görürük. Duyğu və düşüncələrinin təhkiyəçisinə çevrilən sənət aşiqi Sahib Yaqubovun kompozisiyalarında ənənəvi cizgilər xüsusi vurğulanmaqdadır. Onun bəzən mücərrəd, stilizə obrazlar ilə işlənmiş kompozisiyalarının ritmi öz sadəliyi ilə seçilsə də, ikona və freska nümunələrinə bənzərliyi ilə xüsusi bir atmosfer qazanır. Rəssamın personajları tam olaraq ənənəvi və realist təsvir edilməsələr də, onların plastikliyi və kətan üzərində kompozisiya düzümü, eləcə də təqdirəlayiq rəng həlli ilə qeyri-adi təəssüratlar yaradıb, asanlıqla "oxunurlar". Metaforik obrazlarla dolu olan tablolar sanki maraqlı bir oyun içərisindədirlər. Hətta dərin mənaları ilə seçilən bu kompozisiyaların müəllifini rəssam-filosof belə adlandırsaq, yeridir. Bu kompozisiyalar maraqlı simvollar, oxlar, hərflər, bəzən tac, bəzən də şahmat taxtasını andıran naxışlarla daha düşündürücü, daha dolğun və mənalı olur. Buna baxmayaraq gənc rəssamın əsərlərindəki obrazların şıltaq baxışları, mənalı gözləri daha təsirlidir. Ümumi forma və fiqurdan fərqli olaraq bu gözlər daha realdırlar. Əksər tablolarda isə obrazlar bu təsirli gözləri ilə birbaşa tamaşaçının gözünün içinə baxırlar. Bu cür bədii həmlələr də kompozisiyalardakı "canlanma" effektini vurğulamağa kömək edir. Sahib Yaqubov yaradıcılığında mövzular müxtəlifdir. Bəzən aktual, bəzən tarixi, bəzən məişət, çox zaman da nağılvari, fantastik süjetə malik olan bu tablolarda sadə, həndəsi fiqurları da görmək mümkündür. Üçbucaq, dairə, kvadrat kimi fiqurlar isə əsərdəki "mənanı" müəyyən edə bilmək üçün əsl ipucuna çevrilir. Buna misal olaraq, Sahib Yaqubov yaradıcılığında diqqəti çəkən, müasir dövrün simvolik səciyyəsinə malik olan qr (Quick Response) kod təsvirləridir. Bu iki ölçülü ştrixkodları kompozisiyanın əsas qəhrəmanına çevirən rəssam sanki dünyanın özəyində məhz elə bu şifrələrin mövcudluğundan bizlərə xəbər verir. Sanki gizli bir dünyanın qapısını açan bu qr kodlar həm ənənəviliyi, həm də "high-tech", yəni yüksək texnologiyalar çağını özündə birləşdirə bilir. Geniş və titrək fırça vuruşları ilə detallı bir şəkildə həll olunan bu təsvirlər şux kolorit seçimi ilə tamamlanır. Kətan üzərində məhdudiyyətlərə əsla məhəl qoymayan rəssamın "Dünya xəritəsi" isimli tablosu bu qəbildəndir.

Sahib Yaqubovun yaradıcılığında rəng həlli, kolorit seçimi də olduqca zəngindir. Axı rəng sənətin ruhudur Mavinin bir neçə tonu, zümrüd yaşılı, narıncı, Van Qoqun təbirincə desək; "xoşbəxtliyin rəngi" sarı, krallığın rəmzi hesab olunan bənövşəyi, oxra kimi rəngləri Sahib Yaqubovun yaradıcılığında tez-tez görməkdəyik.

Gənc rəssamın əsərlərini əminlik ilə hər hansı bir incəsənət cərəyanına aid edə bilmərik. Hər zaman bədii estetika axtarışında olan, üslubunda obrazlı düşüncə tərzini formalaşdıran rəngkar bir çox tərzə uyğun, ifadəli əsərlər yaradır. Rəssamın yaradıcılığına aid edə biləcəyimiz üslubların arasında impressionizm də vardır. İmpressionizm bəlkə də bütün müasir rəngkarlığın təməlində dayanan ən ümdə hərəkatdır. Rəssam Yaqubovun yaradıcılığında işığın optik effektlərindən geniş şəkildə istifadə də görə bilirik.

Rəssamın fərqli yanaşma, maraqlı təqdimat ilə ərsəyə gətirdiyi "Hamam" əsərinə diqqət yetirək; rəsmdə şərq məişətinin ab-havasını özündə ehtiva edən, çimərkən təsvir olunan çılpaq qadın fiqurları vardır. Rəssam həlim və tonal effektləri ifadə edə bilmək üçün boş, titrək və görünən fırça vuruşlarından, qarışıq palitra seçimindən istifadə edib. Sahib Yaqubovun məhz bu temada həll etdiyi karton və kətan üzərində icra etdiyi "Duş" isimli sənət nümunələri də vardır. Burada rəssam mükəmməl, qüsursuz çılpaq bədən və ya qadın fiqurları yaratmaq deyil də, ümumi kompozisiya həllinin ideal bir şəkildə düzümünü ön plana çəkib.

Müəllifin ideya ümumiliyi və mövzu ardıcıllığı ilə birləşən silsilə əsərləri də mövcuddur. Bu silsilələr arasında "Ağ əllər" trilogiyası diqqəti cəlb edən, kompozisiya həlli avanqard olan sənət nümunələrindən biridir. Rəssamın karton üzərində yağlı boya ilə çəkdiyi "Qumarbaz" isimli tablosu da məhz bu seriyaya mənsubdur. İsmindən aydın olur ki, bu əsərin baş qəhrəmanı qumar oynamağı sevən, ilk baxışdan parıltılı gözlərini izləyiciyə tuşlayan kişi fiqurudur. Obrazın hiss və həyəcanı, hiylə dolu fikirləri rəssam tərəfindən məharətlə təsvir edilib. Qumarbaz obrazının bütünündən yüksək plastika duyulmaqdadır. Rəssamın burada tətbiq etdiyi fırça vuruşları həm görünən, həm də kifayət qədər qabarıqdır. Qumarbazın əllərinə diqqət yetirək. Xurma yarpağına bənzəyən əl forması plastik və yastıdır. Əllər biləyə doğru qalınlaşır. Barmaqların ucuna doğru isə incələşir. Əllər ilə beyin arasında sıx əlaqədən hər kəsin xəbəri vardır. Qumarbazın da ağ və iri əlləri onun beynində dolaşan qurnaz fikirlərini simvolizə edir. "Ağ əllər" trilogiyasına aid olan bir başqa sənət nümunəsi "Rəssam" adlanan rəngkarlıq nümunəsidir. Bir növ avtoportretini yaradan gənc rəssam bu kompozisiyada da sənətkar obrazının hər daim "yaratmağa can atan" əllərini ön planda verməyə çalışıb. Bir əlində palitrası, bir əlində fırçası, qarşısında isə ona yeni nəfəs gətirəcəyi molbert üzərində ağ kətanı ilə təsvir olunan dəli-dolu rəssam fiquru tamaşaçılar üçün kifayət qədər fantastik görünməkdədir. Həmin trilogiyaya aid olan sonuncu əsər "Politik" isimli kompozisiyadır. Digər iki əsərə nəzərən, burada daha qapalı, daha müəmmalı bir ab-hava sezirik. Əsərdəki əsas obraz olan politoloq sanki ağ vərəqin arxasında nədənsə gizlənməkdədir.

Sahib Yaqubovun yaradıcılığında sənətkarlar üçün cənnəti təmsil edən Abşeronun, Abşeron torpağının xüsusi yeri vardır. Xəzərin qoynunda yurd salan Abşeronun doğma qucağından ənginlərə yol açan mənzərəsi hər bir rəssamın ağlını başından almağa, qəlbini fəth etməyə qadirdir. Sumqayıt şəhərinin, Corat qəsəbəsində dünyaya göz açan rəssam üçün əziz, doğma hesab edilən Abşeron olduqca dəyərlidir. Özünəxas, müasir estetik təfəkkür kontekstində sənət nümunələri ərsəyə gətirən Sahib Yaqubovda Abşerona olan marağı tələbə vaxtı, müəllimi Lətif Feyzullayev və Vəcihə Səmədovanın qızı Fatimə Feyzullayeva formalaşdırıb.





Rəssamın "Abşeron madonnası" əsəri olduqca fərqli prizmadan, müasir aspektdən icra edilib. Madonna adətən xristian ikonoqrafiyasında Məryəmin və onun qucağında uşaq obrazı İsanın birlikdə təsvir olunduğu rəsm növüdür. Biz adətən belə səhnələri ya intibah rəssamlarının fırçasından, ya da barok rəssamların fırçasından müşahidə etmişik. Bu dəfə isə Sahib Yaqubovun fırçasından nəzər yetirəcəyik; kompozisiyada müasir geyimli, modern bir qadın obrazı vardır. Rəssam bu əsərdə Madonna motivinin ikonik və ənənəvi meyarlarını alt-üst edərək, tamamilə individual şərhini təqdim edib.

İkonalara, dini, sakral motivlərə yaradıcılığında xüsusi yer verən peşəkar rəngkarın bu konsepsiyada yaratdığı bir başqa əsəri "The man from Nazharet"-dir. İsanın 21-ci əsrin tələblərinə cavab verən bu ikonik təsviri onun yəhudi əsilli olduğunu vurğulamaqdadır. Kövrək baxışı, daha çox dünyəvi obrazı "selfie" stilində icra olunub. Bibliyaya istinad olunan ən məşhur səhnələrdən biri də "Son axşam yeməyi" isimli tablolardır. Rəssam Yaqubov da bu mövzunu özünəxas şəkildə şərh edib. Eyni mövzunu daha böyük ölçüdə akril ilə kətanın üzərində yenidən təsvir edib. Tamamilə simvolik və abstrakt yanaşılan bu səhnədə "bir tikə çörək və bir badə şərab" ayini, yevxaristiya təqdis edilərkən əks olunub.

Sahib Yaqubov yaradıcılığını çoxyönümlü edən bir başqa nüans əsərlərində hiss olunan abstraksiyadır. Buna ən gözəl nümunələr arasında "Zevs və Danaya", "Qolf", "Küləkli şəhərdə yağış", "Arzular" əsərlərini sadalaya bilərik.

Sahib Yaqubov yaradıcılığını zənginləşdirən ən önəmli xüsusiyyət, rəssamın silsilə əsərlər yaratmaq cəhdidir. Belə silsilələrə; "Toy çiçəkləri", "QR-Code Flowers", "QR- Code Planets", "Dərvişlər", "Qapı", "Puzzle", "Musiqi", "The Loading", "Retro cars", "Violet", "Gəmilər", "Güllər", "Döyüşçülər", "Milli pullar", "Sofa", "Mifologiya", "Qarabağa doğru" və s.aiddir.

Sahib Yaqubov rəngkarlıq ilə yanaşı heykəltəraşlıq üzrə də təhsil alıb və o, Fuad Salayevin yetirmələrindən biridir. Sahib Yaqubovun yaradıcılığının abstrakt və xəyalpərəst tərəfini onun heykəl nümunələrinə baxarkən qəti anlamaq mümkün olur. Heykəltəraşın öz sənətinə yanaşma fərqliliyi, baxış orijinallığı birmənalı olaraq tamaşaçılara zövq aşılayır. Sahib Yaqubovun sənət nümunələri təqdimat üsulunun bədii qüvvəsi ilə bütünləşərək, fiqur və həmin fiqurdan doğan təəssüratları oyadıb, tamaşaçıların baxış akkomodasiyasına birbaşa təsir edir. Sənətkarın gerçəkliyə yanaşması, onun daxili enerjisinin dinamikası ilə müqayisə edilə bilər. Sahib Yaqubov heykələ münasibətdə sərbəst, olduqca rahat və azaddır. O, alışılanlardan tamamilə uzaqlaşıb, öz xəyallarının obrazlarını yaratmağa üstünlük verir. Bu da bir növ rəssamın əsərlərinin struktur olaraq inqilabi xarakter daşıdığını bizlərə bəyan edir. Heykəltəraşın heykəl fiqurları ilə yanaşı, seçdiyi mövzuları da özü qədər maraqlı və yaddaqalan olur, izləyicidə sənətin bu sahəsinə fərqli münasibət oyadır. Çağdaş sənətkarın düşüncə kodlarının incəsənətin hər bir sahəsində öz innovativ səciyyəsini qoruyub saxladığına şahid oluruq. Heykəltəraşın heykəl nümunələrinə öz plastikası ilə seçilən "Duş" isimli kompozisiyası, təbiət ilə əylənən çərpələng uçuran qız obrazını gördüyümüz "Sevinc" kompozisiyası, tanınmış caz ifaçısı və pianoçu İsfar Sarabskinin obrazına yer verdiyi "İsfarın rəqsi" isimli heykəl nümunəsi, romantik səciyyəyə malik "Tanqo" əsəri, qadın zərifliyi ilə macəra doğuran hissləri kombinə etdiyi, olduqca dinamik tərzdə həll olunan "Yelləncək" kompozisiyası, "Öpüş" əsəri, bir başqa pianist, caz əfsanəsi adlanan Rey Çarlzı ölümsüzləşdirdiyi "Mess around" kompozisiyası, çoxfiqurlu kompozisiya hesab edə biləcəyimiz "İmmiqrantlar" əsəri, ənənəvilikdən tamamilə arınmış, aya meydan oxuyan bir fiqurla rastlaşdığımız "Cazibə Qanunu" isimli kiçik dəzgah nümunəsi və daha adını çəkə biləcəyimiz bir çox maraqlı sənət əsərləri daxildir.

Gənc rəssam Sahib Yaqubovun bir digər həyati missiyası da müəllimlikdir. O, öz tələbələrini həm bir dünya görüşlü şəxsiyyət, həm də əsl rəssam kimi yetişdirməyə çalışır. Təbii ki, sənəti tədris etməyin məqsədi təkcə rəssam yetişdirmək deyil. Burada məqsəd həm də sənətin insanlara bəxş edəcəyi ülvi hisslərlə gözəl ruhlar da yetişdirməkdir. Əbəs yerə deyilməyib ki; "Gələcək gənclərin, gənclər isə müəllimlərin şah əsərləridir. "Bu gün incəsənətin də gələcəyi Sahib Yaqubov kimi peşəsinə bağlı, istedadlı və peşəkar rəssam-pedaqoqlarımızın əllərindədir. Sahib Yaqubova yaradıcılıq fəaliyyətində uğurlar diləyir, sənətə olan bağlılığının və məhəbbətinin əsla bitib-tükənməməsini arzulayırıq.

**Nigar Hətəmova,**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

# Dələduzlar vətəndaşların bank hesablarını ələ keçirir

## Alış-veriş saytlarından istifadə etməzdən öncə o saytların ciddi, normal platforma olduğuna əmin olmaq lazımdır




**Daxili İşlər Nazirliyi kibercinayətkarlıqla bağlı vətəndaşlara müraciət edib.**

DİN-in mətbuat xidmətindən "Şərq"ə bildirilib ki, son dövrlər dələduzluqla məşğul olan bəzi şəxslər tərəfindən alqı-satqı saytlarında elan yerləşdirən vətəndaşlara xüsusilə saxta xarici nömrələrdən zənglər edilməklə və ya tətbiqlər vasitəsilə yazmaqla məhsulu alacağı vədini verərək guya pul köçürmək məqsədilə onların şəxsi bank kart məlumatlarının əldə edilməsi hallarına rast gəlinməkdədir.

Nazirlik vətəndaşlara müraciət edərək, belə şəxslərə inanıb kart məlumatlarını təqdim etməməyə çağırıb.

"Vətəndaşlar kibercinayətkarlıqla üzləşdikləri təqdirdə isə DİN-in "102" Xidməti-Zəng Mərkəzinə, o cümlədən ərazi polis orqanına və ya sosial şəbəkələrdəki səhifələrimizə müraciət edə bilərlər" - deyə müraciətdə qeyd olunub.

**İKT eksperti Cavid Əliyevin "Şərq"ə açıqlamasına görə, onlayn alış-veriş saytlarından istifadə etməzdən öncə o saytların ciddi, normal platforma olduğuna əmin olmaq lazımdır:** "Bəzən ucuz qiymətlərlə insanların diqqətini çəkirlər, amma belə nüanslara mütləq diqqət etmək lazımdır. Saytda şəxsi hesab, şəxsi kabinet açmazdan öncə şərtləri oxumaq lazımdır. Siz ora şəxsi məlumatlarınızı daxil edirsiniz, mütləq bilməlisiniz o məlumatlarla bağlı qarşı tərəf hansı formada yanaşma təklif edir. Çünki bank kartı yükləyərkən ilk dəfə sizdən 3D təhlükəsizlik kodu istəyir. Siz bu kodu yazırsınız. Qeyri-ciddi saytlarda bu kod yalnız bir dəfə istənilir və siz onu yazdıqda bilmədən növbəti alış-verişlər üçün kod istənilməməsini, məlumatlarınızın silinməməsini təsdiq edirsiniz". Vətəndaşların informasiya təhlükəsizliyi ilə bağlı savadlılıq səviyyəsinin aşağı olduğunu vurğulayan ekspert deyib ki, insanlar naməlum və təhlükəli saytlara daxil olarkən bilməyərəkdən hansısa faylları açırlar: "Bu zaman isə smartfonlarına və ya kompüterlərinə xüsusi proqramlar yüklənir. Bu proqramlar vasitəsilə asanlıqla telefonun məlumatları ələ keçirilir və hakerlər bank kartlarını oxuya bilirlər.

"Bu cür halların baş verməməsi üçün insanların informasiya təhlükəsizliyi ilə bağlı maarifləndirilməsinə ehtiyac var. Bank kartlarından istifadə edən bəzi istifadəçilər hələ də müasir texnologiyaların qaydalarını tam bilmirlər. Məsələn, istifadəçi kart ilə onlayn alış-veriş etdikdə, hesab məlumatlarını telefon, planşet və ya kompüter vasitəsilə daxil edirlər. Belə olan halda isə məlumatları oğurlayan proqramlar cihazda varsa, deməli, avtomatik olaraq hesabın ələ keçirilməsi də asanlaşır".

**Şəymən**

# Astma xəbərdarlığı

## Xəstəlik 2025-ci ilə qədər dünyada 400 milyon insana təsir göstərəcək

*(Əvvəli səh: 8-də)*



**Xroniki tənəffüs xəstəliyi hesab olunan astma dünyada ölümlə nəticələnən bir sıra xəstəliklərdən daha çox yayılıb.**

Əhalinin sayı ilə müqayisədə astma ABŞ və Avstraliyada, bəzi Qərbi Avropa və Latın Amerikası ölkələrində geniş yayılsa da, onunla bağlı ölüm hallarına Myanma, Kiribati, Laos, Şri Lanka, Yeni Qvineya, Mali və Lesoto kimi aşağı və orta gəlirli ölkələrdə daha çox rast gəlinir. Bu ölkələrdə hər gün 1263 nəfərin astma səbəbiylə həyatını itirdiyi müəyyən edilib.

Qeyd edək ki, astma ağciyərlərdə kiçik tənəffüs yollarının iltihabı və daralması, öskürək, xırıltı, nəfəs darlığı və döş qəfəsində sıxılma nəticəsində yaranan xroniki ağciyər xəstəliyidir.

Bu xəstəlik təkrarlanan və şiddətlənən təngnəfəslik, tənəffüs zamanı xırıltı və ya fit çalma, döş qəfəsində təzyiq hissi və öskürək kimi əlamətlərlə özünü göstərir. Allergik reaksiyalara səbəb ola bilən və ya tənəffüs yollarını qıcıqlandıran maddələrin və hissəciklərin inhalyasiyası astmanın inkişafı üçün mühüm risk faktorudur. Astmanın uşaqlıq çağı xəstəliyi və yoluxucu olması, fərdlərin yaşlandıqca ondan xilas olacağı, astma xəstələrinin idman etməməsi və bunun yalnız yüksək dozalı steroidlərlə idarə olunması kimi iddialar yanlışdır. Qeyri-infeksion astma hər yaşda, o cümlədən uşaqlarda, yeniyetmələrdə, böyüklərdə və qocalarda baş verə bilər. Soyuqdəymə və qrip kimi viral respirator infeksiyalar astma tutmalarına səbəb ola bilər. Uşaqlarda astmatez-tezallergiya ilə əlaqələndirilir, böyüklərdə başlayan astmanın isə daha az allergik olduğu bilinir.

Astma yaxşı idarə edildikdə, bu xəstəliyi olan insanlar idman edə bilərlər.

Astma adətən inhalyasiya yolu ilə aşağı doza lısteroidlərlə idarə oluna bilər.

Müalicə edilə bilməsə də, epizodlar və ya kəskinləşmələr adlanan hücumları azaltmaq və qarşısını almaq üçün astmanı idarə etmək və idarə etmək mümkündür.

Astma nəzarətini çətinləşdirən amillər arasında dərmanların düzgün texnika ilə və müntəzəm istifadə edilməməsi, allergenlər kimi spesifik tetikleyicilərə və ya infeksiya, siqaret tüstüsü və kimyəvi maddələr kimi ümumi tetikleyicilərə məruz qalma daxildir. Araşdırmalarda bildirilir ki, həkimin tövsiyə etdiyi dərmanlardan istifadə etmək, siqaretdən imtina etmək, kök xəstələrdə arıqlamaq, sağlam və balanslı qidalanma, nizamlı idman etmək, nəfəs alma havasını təmiz saxlamaq astmaya qarşı mübarizəni asanlaşdırır.

**Şəymən**

Vəli Səmədli, Sultan Quliyev, Əmir Şahbuzlu, Piriş Qaraoğlu, Aydın Xanəliyev Ordubad rayonunun Tivi kəndində yaşayan Məmmədovlar ailəsinə

**İsgəndər Məmmədovun**

vəfatı ilə əlaqədar başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Vəli Səmədli, Sultan Quliyev, Əmir Şahbuzlu, Piriş Qaraoğlu, Aydın Xanəliyev Ordubad rayonunun Tivi kəndində yaşayan Tağıyevlər ailəsinə

**Yusif Tağıyevin**

vəfatı ilə əlaqədar başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi:**
**"Muğanbank" ASC baş ofis**
**Kod: 506162**
**VÖEN: 1400122681**
**M/H: AZ41NABZ01350100000000018944**
**S.W.İ.F.T.: MUGAAZ22**
**AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00**
**VÖEN 1300414651 İndeks: 0330**

**Tirajı: 1550 Sifariş: 1168**



## Cinsi ayrı-seçkiliyə məruz qalmaq...

### Beynin bəzi hissələrini kiçildir

**Bir neçə ölkədə aparılan tədqiqatların nəticələri araşdırılarkən uşaqlıq illərində cinsi ayrı-seçkiliyə məruz qalanların beyninin bəzi hissələrində fərqliliklər ortaya çıxıb.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, bu barədə "Medical Xpress"də məlumat verilib. Xəbərə görə, dünya üzrə neyrocərrah, psixoloq və psixiatrların cəmləndiyi tədqiqatçılar heyəti cinsi ayrı-seçkiliyin kiçik yaşlarından cinsi fərqə görə özlərinə qarşı fərqli davranış görən, valideynləri tərəfindən ayrı-seçkiliyə məruz qalanların beyninə təsirini müəyyənləşdirib. Tədqiqatda 29 ölkədən 7 min 876 nəfər iştirak edib və onlar maqnit rezonans tomoqrafiyasından keçirilib. MRT sayəsində bu insanların beynində baş vermiş dəyişiklik görünüb. Nəticələrə görə, cinsi bərabərlik səviyyəsinin aşağı olduğu ölkələrin qadınlarının beyninin 3 bölgəsi, cinsi bərabərlik səviyyəsinin yüksək olduğu ölkələrin qadınlarının beyninə nisbətən daha kiçikdir. Cinsi ayrı-seçkilik səviyyəsi artdıqca, beynin bu 3 bölgəsi daha da kiçilməyə doğru gedir. Tədqiqatın sonucları "Proedings of the National Academy of Sciences" dərgisində yayımlanıb. Tədqiqatçılar cinsi ayrı-seçkiliyə məruz qalmanın uşaqlıq illərindən başlayaraq fərdlərin beyin hüceyrələrinə mənfi təsir etdiyi, nəticədə beynin 3 bölgəsində kiçilmə və daralma getdiyi qənaətindədirlər.

**Məlahət**

## 30 dəqiqə gəzmək

### Ömrü 16 il uzadır



**Hər gün 30 dəqiqə gəzmək insan ömrünü 16 il uzadır.**

"Medicina" məlumatına görə, Böyük Britaniyanın Leicester Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, gündə yarım saat müntəzəm olaraq, sürətli gəzintilər insanın ömrünü artırır.

Müəlliflər UK Biobank tərəfindən toplanmış 400 mindən çox iştirakçı haqqında tibbi məlumatları təhlil etdikdən sonra bu qənaətə gəliblər.

Məlum olub ki, nizamlı gəzməyə üstünlük verənlər gəzməyənlərdən 16 il daha çox yaşayıblar.

Tədqiqatçılar deyirlər ki, gündə yarım saat yerimək telomerlərin uzunluğunu artıra bilər.

Telomerlər xromosomların uclarında yerləşir və bədənin qocalma sürəti onların nə qədər uzun olmasından asılıdır.

Beləliklə, onlar nə qədər uzun olsalar, bioloji yaş bir o qədər aşağı olur. Bundan əlavə, müntəzəm gəzinti fiziki, zehni və sosial faydalar da verə bilər.

## "İbrahim Əzrailə 3:0 qalib gəldi"

### Tatlısəsin keçmiş arvadı maraqlı fikir səsləndirib



**2011-2013-cü illərdə İbrahim Tatlısəs ilə evli olan və bu nikahdan Elif Ada adlı qızı doğulan Ayşegül Yıldız qatıldığı tədbirlərin birində maraqlı fikir səsləndirib.**

**Lent.az xəbər verir ki, keçmiş əri haqqında böyük hörmətlə danışan Ayşegül Yıldız deyib: "O, etdiyi yaxşılıqlar, aldığı dualar sayəsində həyatda qalır".**

**Onun fikrincə, İbrahim Allahın sevdiyi quludur, yoxsa 3 dəfə ölümdən dönmək hər insana nəsib olmur: "İbrahim Tatlısəs Əzrailə 3:0 qalib gəlib" .**

## Xəbərlər doğrudur

### Eşq iddialarını inkar etmədilər



**Xəbər verdiyimiz kimi, türkiyəli aktrisa Aybüke Pusatla aktyor Furkan Andıçın eşq yaşadığı iddia olunur.**

**Axşam.az xəbər verir ki, münasibətlərini inkar edən cütlük İtaliyaya tətilə gedib. Türkiyəyə dönən ikili müxbirin suallarını cavabsız qoyub. Bununla belə Aybüke ilə Furkan eşq yaşamaları ilə bağlı sualı inkar da etməyiblər.**

***Qeyd edək ki, cütlük daha öncə "Her yerde sen" serialında sevgili obrazını canlandırıb.***

## Aktrisa sevgilisinə xəyanət edib



**Türkiyəli aktrisa Tuvana Türkayla iş adamı sevgilisi İzzet Antebinin bir illik münasibəti sonlanıb.**

**Axşam.az xəbər verir ki, buna səbəb isə aktrisanın sevgilisinə xəyanət etməsi olub.**

**Türkayın prodüserlə eşq yaşadığı iddia olunur.**

***Qeyd edək ki, İ.Antebi aktrisadan 14 yaş böyükdür.***



# Dünyanın ən gənc baş naziri boşanır

## Sanna Marin siyasi karyerasında da, özəl həyatında da çətin günlər yaşayır

**Dünyanın ən gənc baş naziri olaraq tanınan Sanna Marin hazırda siyasi karyerasında da, özəl həyatında da çətin günlər yaşayır. Məlumdur ki, Sanna Marinin rəhbərlik etdiyi Sosial Demokrat Partiyası ötən ay Finlandiyada keçirilən parlament seçkilərində məğlub olub, Milli Koalisiya Partiyası qalib gəlib. Sanna Marin isə partiya sədrliyindən istefa verərək parlamentdə millət vəkili olaraq çalışacağını açıqlayıb, lakin Finlandiyada yeni hökumət hələ formalaşmayıb.**

Seçkilərdəki məğlubiyyət sabiq baş nazirin ailə həyatına da təsirsiz ötüşməyib. Sanna Marinin 3 ildir evli olduğu həyat yoldaşından boşanmaq üzrə olduğu deyilir. "NTV,com.tr"nin xəbərinə görə, sabiq baş nazir özəl həyatında da təlatümlər yaşayır. Sanna Marin 3 il rəsmi evli olduğu 19 illik sevglilisindən ayrılıb. S.Marinin həyat yoldaşı Markus Raikkonenə boşanma davası açıb. 37 yaşlı Sanna da, həyat yoldaşı da instagram hesablarından eyni məzmunlu açıqlama yayıblar. Onlar "19 illik birliyimizə və sevimli qızımıza minnətdarıq. Bundan sonra da dost olaraq qalacağıq", yazıblar. Cütlüyün 5 yaşında qız övladları var. Cütlük 2020-ci ildə San-



na Marin baş nazir olduğu zaman evlənib. Sanna Marin toy mərasimindən sonra sosial şəbəkədə belə bir açıqlama yaymışdı: "Gəncliyimizi birgə yaşadıq, yetkinliyə birgə addım atdıq və sevgili qızımıza valideyn ola bilmək üçün kamilləşdik". Sanna Marin 2019-cu ildə Finlandiyanın baş naziri seçilib. O, dünyanın ən gənc baş naziri tituluna sahibdir. Sanna Marin gənc siyasətçilərə örnək göstərildiyi zamanlarda dostlarıyla şənlik məclislərindən birində çəkilmiş görüntülər partlayış effekti yaratmışdı.




Görüntülər yayıldıqdan sonra baş nazirdən narkotik maddə qəbulunma dair testdən keçməsi tələb olunmuşdu. Haqqında "Finlandiyanın "parti" düşkünü baş naziri" ifadələri mətbuat manşetlərini bəzəyirdi. O zamanlar çətin günlər keçirən gənc baş nazir xalqdan üzr istəyib belə söyləmişdi: "Hazırda çox duyğusal bir mövzu müzakirə edilir. Amma iş görmək və zamanımızı böyük problemlərin həllinə həsr etməyimiz lazımdır. Bu ölkənin liderliyə ehtiyacı var".

**Məlahət**



# Astma xəbərdarlığı

## Xəstəlik 2025-ci ilə qədər dünyada 400 milyon insana təsir göstərəcək

**Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə hər il may ayının ilk həftəsində "Ümumdünya Astma ilə Mübarizə Günü" keçirilir. Həmin günün yaranma tarixi 1993-cü ildə ABŞ-nin Milli Ürək, Ağciyər və Qan İnstitutu, Milli Sağlamlıq İnstitutu və Ümumdünya Sağlamlıq Mərkəzi tərəfindən "Bronxial astmanın müalicəsi və profilaktikası qlobal strategiyası"nı müəyyənləşdirən işçi qrupunun formalaşdırılması ilə əlaqədardır.**

1998-ci ildə Barselonada keçirilən astma problemlərinə həsr olunmuş dünya mütəxəssislərinin Ümumdünya Bronxial Astma Forumuna 35 ölkə qoşulub və həmin ölkələrin sırası ildən-ilə genişlənir. Hazırda dünyanın 80-dən çox ölkəsində əhalinin maarifləndirilməsi məqsədilə bronxial astmanın müalicəsi və profilaktikası ilə bağlı qlobal strategiya çərçivəsində müxtəlif tədbirlər keçirilir. "Şərq"in "NTV"yə istinadən əldə etdiyi məlumata görə, "Ümumdünya Astma ilə Mübarizə Günü" bu il "Hər kəs üçün astmanın müalicəsi" devizi ilə keçirilib. XX əsrdə astmanı yaradan səbəbin fiziki, kimyəvi və bioloji xarici qıcıqlandırıcılara cavab reak-



siyası kimi bronxların lokal iltihabı olduğu müəyyənləşib. Astmanın inkişafının ən başlıca risk faktorları allergenlərdir. Bundan əlavə soyuq hava, həyəcan, əsəb, qorxu və idman da xəstəliyin əmələgəlmə səbəblərindən ola bilər. Bəzən xəstəliyin yaranmasında genetik faktorların da rolu olur. Məlumata görə, hər ölkədə fərqli rəqəmlər olsa da, statistik göstəricilərdə dünya üzrə astma xəstələrinin orta nisbətinin 15 faiz olduğu təxmin edilir. 2025-ci ildə 400 milyon insanın astmadan əziyyət çəkəcəyi gözlənilir. Hazırda isə dünyada 339 milyon astma xəstəsinin olduğu bildirilib.

*(Davamı səh:7-də)*

**Şəymən**

## "Oxuyan gələcək"

### Beren Saat zəlzələ uşaqları üçün kitab oxudu




**Sevilən aktrisa Beren Saat zəlzələdən zərərçəkmiş uşaqlar üçün kamera qarşısına keçib. Amma hər hansı reklam çarxı və ya film, dizi səhnəsi çəkilişləri üçün deyil, kitab oxumaq üçün.**

"Ulduz" aktrisa "Oxuyan gələcək" layihəsinə dəstək çərçivəsində uşaqlar üçün hekayə səsləndirib. Bu layihə Türkiyədə Ana Uşaq Təhsil Vəqfi tərəfindən uşaqlarda qiraət, danışıq dilinin inkişafını dəstəkləmək, onlara kitab oxumaq sevgisini və vərdişini aşılamaq məqsədi daşıyır. Layihə 2016-cı ildən icra olunur və indiyədək bir çox mıəşhurlar ona dəstək olublar. Pandemiya dönəmində də layihə onlayn formatda davam etdirilib. Mikrofon arxasına keçən tanınmış simalar, sənət adamları, alimlər, yazarların iştirakı və Fazil Sayın musiqisinin müşayiəti ilə indiyədək 18 hekayə kitabı səsləndirilib. "Oxuyan gələcək" layihəsinə yeni-yeni kitablar daxil edilir. Sevilən aktrisa Beren Saat isə layihəyə yeni daxil edilmiş "Tostos Dədəsini Özlüyor" ("Tostos dədəsi üçün darıxır") kitabından hekayə oxuyub. Bu hekayənin müəllifi klinik psixoloq Bahar Çakırdır. İllüstrasiyalar isə Gözde Eyceyə məxsusdur. Psixoloqların rəyinə görə, hekayə zəlzələ səbəbindən ailəsində itkilər yaşamış, kədərli günlər keçirən uşaqlara müsbət enerji və həyat eşqi aşılayır. Beren Saat layihədə iştirak etməsindən məmnunluq duyduğunu deyib: "Belə bir anlamlı, məqsədi, məramı bəlli olan layihədə iştirakdan çox məmnunam. Zəlzələdən zərər çəkmiş uşaqlar, ailələr başda olmaqla, çətin, hüzünlü günlərlə mübarizə aparan hər kəsə yüngüllük gətirəcəyini, ümid işığı olacağını diləyirəm". Bu günə qədər kitablardan hekayələri digər məşhurlar - Cem Yılmaz, Demet Evgar, Genco Erkal, Haticə Şəndil və başqaları səsləndirib.

**Məlahət**

## Türkiyədə dəhşət yaşandı

### Uşağı qaçırıb suda boğdular



**Türkiyədə qaçırılan uşaq öldürülüb.**

Lent.az bildirir ki, Mersinin Yenişehir rayonundakı Türksat küçəsində yaşayan suriyalı zərgər Halit Hayankedin oğlu 12 yaşlı Xaled Hayanked bağçada oynayarkən yoxa çıxıb. Daha sonra telefonla ailəyə zəng edən şəxs uşağın onların əlində olduğunu bildirib və 400 min avro pul tələb edib. Uşağın atası bu barədə polisə xəbər verib. Təhlükəsizlik kamerası görüntülərini araşdıran polis, uşağın hadisə yerini tərk etmədiyini müəyyən edib.

Polis oğlanın xalçaya bükülmüş meyitini 3 bloklu ərazinin A blokunun zirzəmisində aşkar edib. Suda boğularaq öldürülən uşaq torpağa tapşırılıb.

Hadisə yerində qapıçı olan 42 yaşlı H. C. saxlanılıb. Qətli törətdiyini etiraf edən şübhəli həbs edilib.